№ 274 ISSN 1027-3875 30 sentyabr 2009

KHAZAR VIEW

XƏZƏR XƏBƏR



ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK TOPLU

www.khazar.org

ELMİ-KÜTLƏVİ,
BƏDİİ-PUBLİSİSTİK
TOPLU

1995-ci ilin
yanvarından ayda 2 dəfə çıxır

Təsisçi:
XƏZƏR UNİVERSİTƏSİ

Baş redaktor:
Hamlet İSAXANLI

Baş redaktor müavini:
Əlirza BALAYEV

Redaksiya heyəti:
Camal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Cəmil HƏSƏNLİ
Bəhlul ABDULLA
Nizami CƏFƏROV
Əfqan ABDULLAYEV
İsmət ƏHMƏDOV

Rəssam:
Rafiq ƏBDÜLRƏHİMOV

Kompüter tərtibatçısı:
Emil MƏMMƏDOV
Fotomüxbir:
Könül ƏLİYEVA
Ünvanımız:
Bakı, Məhsəti küçəsi 11,
("Neftçilər" metrosunun yanı)
Faks: 498-93-79
Telefon: 421-79-16
421-10-93

Şəhadətnamə: 255
İndeks: 67178
Sifariş: 190
Tiraj: 3000

Müəlliflərlə
redaksiyanın mövqeyi
üst-üstə düşməyə bilər
Əlyazmalar geri qaytarılmır
Xəzər Universitəsi
mətbəəsində çap edilmişdir

SCIENTIFIC-POPULAR
LITERARY-PUBLICISTIC
COLLECTION

It has been publishing twice
a month since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Alirza BALAYEV

Editorial member:
Jamal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Jamil HASANLI
Bahlul ABDULLA
Nizami JAFAROV
Afgan ABDULLAYEV
İsmat AHMADOV

Design by:
Rafig ABDULRAHIMOV

Computer graphics:
Emil MAMMADOV
Photoreporter:
Konul ALIYEVA

Address:
11 Mahsati str., Baku,
(near the "Neftchilar" metro)
Fax: 498-93-79
Phone: 421-79-16
421-10-93

Certificate: 255
Index: 67178
Order: 190
Copies: 3000

The opinions of authors
and editors
could be independent
Manuscripts are not returned
Published by
Khazar University Press

OXUYUN

Bu nömrədə



YENİ TƏDRİS İLİNİN AÇILIŞ MƏRASİMİ 6



"Xəzər"in fəxri - idmançılar 15



ŞAİRLƏR ŞEİR SƏNƏTİ HAQQINDA 17



RUHU SAFLAŞDIRAN MUSİQİ 20

TƏHSİL HAQQINDA 23
AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU



HAYKA HAO 32

USAQ DÜNYASI
36

UNİVERSİTƏ XƏBƏRLƏRİ

The education partnership conference takes place in Baku



As we informed you in our last number of journal, on September 10, "Erasmus Mundus - External Co-operation Window: Lot 6" partnership conference has started in Baku. President of Khazar University **Hamlet Isakhanli** and Rector of the Azerbaijan Tourism Institute **Jafar Jafarov** welcomed to guests. Minister of Culture and Tourism **Abulfas Garayev**, Counselor of the Delegation of the European Commission to Azerbaijan **Jean-Louis Lavroff**, Deputy Foreign Minister **Mahmud Mammadguliyev** and Project Coordinator for South Caucasus **Tania Kapiki** addressed the opening ceremony.

Jean-Louis Lavroff said to improve student exchange procedure, modernize education system and arrange dialogue between the EU and other countries the European Union is implementing three projects "Tempus", "Erasmus Mundus" and "Erasmus Mundus - External Co-operation Window. Lot 6". "Erasmus Mundus - External Co-operation Window" has been implemented in Azerbaijan since 2006. Representatives of higher schools of Greece, Portugal, Italy, Bulgaria and Georgia, ambassador of Greece **Ioannis Metaksas**, ambassador of Norway **Jon Ramberg** and representatives of other diplomatic offices also attended the opening ceremony.

Then Project Coordinator for South Caucasus Tania Kapiki presented award, *the Best Master Student*, to **Ayten Mammadova** (Master student of Khazar University) who studied through the exchange program.

The conference ended on September 13.



"ERASMUS MUNDUS" PROQRAMI UĞURLA DAVAM EDİR



Yarandığı ilk günlərdən dünyanın müxtəlif ali təhsil ocaqları ilə daim əlaqələr qurmaq, tələbə və müəllim mübadiləsi, xarici universitetlərdə qazanılmış yeni elmi nailiyyətlərin öyrənilməsi və universitetdəki elmi tədqiqatların miqyasının genişləndirilməsi və digər təhsil müəssisələri ilə paylaşılması Xəzər Universitəsinin öndə gələn məqsədlərindən olmuşdur... Bu əlaqələr ali təhsil müəssisəsinin inkişafının göstəricilərindən biri kimi ildən-ilə daha da genişləndirilir. Bu mənada beynəlxalq tələbə mübadiləsi proqramlarında müxtəlif təhsil səviyyələrində (bakalavr, magistr, doktor və s.) onlarla "Xəzər"li tələbə xaricdə təhsil almaq imkanı qazanmışdır... Artıq dünyanın bir çox ölkələrində ciddi ali məktəb təsəvvürü formalaşdırmış Xəzər Universitəsi ilə əlaqələr qurulması üçün yaranan maraq söylədiklərimizin əyani təsdiqidir.

Artıq bir neçə ildir ki, Xəzər Universitəsi də daxil olmaqla, Azərbaycanın üç ali təhsil ocağı ilə əməkdaşlıq edən Avropa Birliyinin həyata keçirdiyi "Erasmus Mundus - Xarici Əməkdaşlıq Pəncərəsi: Lot 6" proqramının rəhbərliyinin, proqramın rəhbəri xanım Tania Kapikinin və digərlərinin Azərbaycana səfər çərçivəsində Xəzər Universitəsinə xüsusi vaxt ayırması bu qazanılmış etibarın, inamın bir sübutudur.



Sentyabrın 11-də Yunanıstandan və proqramda tərəfdaşlıq edən Gürcüstandan gəlmiş nümayəndələr Xəzər Universitəsi ilə yaxından tanış olmaq üçün universitənin şəhər mərkəzindəki binasında toplaşmışdılar.

Tədbirin aparıcısı, Xəzər Universitəsinin magistri **Aytən Məmmədova** səhnəyə Xəzər Universitəsinin rektoru, professor **Hamlet İsaxanlını** dəvət etdi. O, qonaqları salamladı və onların burada olmasından məmnun olduğunu bildirdi. Qeyd etdi ki, proqramın rəhbəri olaraq xanım Tania Kapikinin burada olması çox xoşdur. Proqramın uğurla davam etdiyini vurğulayan universitə rəhbəri bundan sonra da lazımi köməkliyi göstərməyə hazır olduqlarını bildirdi. Çıxışının sonunda professor Hamlet İsaxanlı Xəzər Universitəsinin magistr tələbəsi Aytən Məmmədovanı "Ən yaxşı *Erasmus Mundus* magistr tələbəsi" seçilməsi münasibəti ilə təbrik etdi və ona universitə adından gül dəstəsi bağışladı. Qeyd edək ki, Aytən Məmmədova "Erasmus Mundus: Xarici əməkdaşlıq pəncərəsi. Lot 5" proqramı çərçivəsində Yunanıstanın Saloniki şəhərində Aleksandr Texniki Təhsil İnstitutunda *(Alexander Technological Educational Institute)* təhsil almış ilk tələbələrdəndir.



Sonra Xəzər Universitəsi haqqında ümumi məlumat vermək üçün səhnəyə universitənin əməkdaşı **Ülkər İsayeva** dəvət olundu. O, universitənin yaranması və keçdiyi inkişaf tarixi, beynəlxalq əlaqələri, fakültə və ixtisaslar haqqında qısa məlumat verdi.

Universitənin Tarix departamentinin əməkdaşı **Günel Rəhmanzadə** tədbir iştirakçılarının diqqətinə Azərbaycan tarixindən bəzi məqamları çatdıraraq, Azərbaycan xalqının qədimliyi barədə müəyyən təsəvvür yaratdı.



Xəzər Universitəsinin prorektoru, İqtisadiyyat və menecment fakültəsinin dekanı, professor **Məhəmməd Nuriyev** isə rəhbərlik etdiyi fakültə haqqında qonaqlara qısa məlumat verdi.

Daha sonra adı çəkilən proqram çərçivəsində Xəzər Universitəsinin tələbələri –Yunanıstanda təhsil almış **Anar Qurbanov** və Portuqaliyada təhsil almış **Toğrul Rəhimov** təhsil aldıqları institutlar, proqramın üstünlükləri, əldə etdikləri təhsil haqqında danışdılar və digər tələbələrə də bu cür proqramlarda iştirak etməyi məsləhət gördülər.

Sonda Xəzər Universitəsi mahnı və rəqs ansamblının hazırladığı konsert proqramı təqdim edildi.

Günün sonunda qonaqlar Xəzər Universitəsinin əsas binası ilə tanış oldular və yeni tədris korpusunun açılışında iştirak etdilər.

YENİ TƏDRİS İLİNİN AÇILIŞ MƏRASİMİ



Sentyabrın 15-də Xəzər Universitəsində yeni tədris ilinin ənənəvi açılış mərasimi oldu. Builki açılış həm də universitənin yeni tədris korpusunun istifadəyə verilməsi ilə əlamətdar idi.

Mərasimdə Xəzər Universitəsinin yaradıcısı və rektoru, professor Hamlet İsaxanlı çıxış edərək tələbələri, xüsusən birinci kursa qəbul olunmuş gəncləri təbrik etdi, onlara təhsillərində uğurlar arzuladı. Rektor Xəzər Universitəsi, onu başqa ali təhsil müəssisələrindən fərqləndirən cəhətlər haqqında ətraflı məlumat verdi, universitənin geniş beynəlxalq əlaqələrindən danışdı.

Sonra rektor yüksək bal toplamış tələbələrə tələbə biletini təqdim etdi.

Universitənin İngilis dili departamentinin baş müəllimi Firəngiz Nəsirova, İqtisadiyyat və menecment fakültəsinin professoru İnqilab Əhmədov, universitənin müəllimi, xalq artisti Arif Babayev və Universitə Tələbə Məclisinin prezidenti Pərviz Muradov çıxış edərək, tələbələrə yeni dərs ilində uğurlar arzuladılar.

Mərasim universitənin mahnı və rəqs ansamblının kiçik konserti ilə başa çatdı.

HAMLET İSAXANLININ ÇIXIŞI

Hörmətli tələbələr, əziz valideynlər, əziz müəllimlər! Hər gəncin həyatında hər gün bayram olmur, bəzən böyük sevinci illərlə gözləmək lazım gəlir. Uşaqlarımız birinci sinfə gedir, sonra on bir il gözləmək lazım gəlir ki, onlar məktəbi bitirsinlər. Və sonra böyük həyəcanla gözləyirik ki, onlar ali məktəblərə qəbul olunsunlar; bu, gəncin həyatında ən böyük hadisəyə çevrilir.Tək gəncin həyatında yox, eyni zamanda onun ailəsində, onun nəslində, onun yaşadığı yerdə, onun məktəbində böyük hadisəyə çevrilir. Çünki bununla həm gənc, həm onu istəyən yaxınları yeni bir yola daxil olurlar, yeni bir yolun başlanğıcına daxil olurlar. Bu baxımdan bu gün Xəzər Universitəsinə gələn tələbələrin də bayramıdır. Əlbəttə, mənim dediyim sözlər ilk növbədə bu il ali məktəblərə daxil olanlara aiddir. Amma mən hamını təbrik edirəm, çünki yuxarı



kurslarda təhsil alan tələbələr də ildən ilə daha savadlı, daha geniş dünyagörüşünə malik olurlar, alacaqları ixtisasa daha yaxın olurlar, həyata daha dərindən nüfuz edə bilirlər və onlar da hər yeni dərs ilində sevinə-sevinə öz ali məktəblərinə qayıdırlar.

Amma təbii ki, bu gün ilk növbədə yeni qəbul olunanların və onların ailələrinin, eyni zamanda bizim bayramımızdır. Hər ailə və ali təhsil almaq arzusunda olan gənc harda oxumaq barədə fikirləşir. Bu, çox mühüm məsələdir, çünki gələcəyin böyük dərəcədə harda oxumağından, necə oxumağından, nə oxumağından, səni kimlərin oxutduğundan asılıdır.

Çünki insanın düşdüyü şərait, düşdüyü ocaq, onun istedadı və çalışqanlığı ilə bərabər, onun gələcəyini müəyyən edir. Bu baxımdan Xəzər Universitəsi yarandığı gündən dünyanın ən yaxşı təhsil təcrübəsini Azərbaycana gətirməyə çalışır, hər zaman səmimi olmağa çalışır, hər zaman özünütənqidlə məşğul olur, çünki mükəmməlliyin sonu yoxdur və biz həmişə bu yolla irəliləməyə çalışırıq; hər zaman çalışırıq ki, inkişaf olsun, yenilik olsun.

Bu il də bizim yeniliklərimiz çoxdur. Mən onlardan bəzilərini de-



mək istəyirəm. Məsələn, Xəzər Universitəsində hər hansı ixtisas üzrə təhsil alarkən, digər bir ixtisas üzrə də təhsil almaq imkanına maliksiniz, yəni iki diplom ala bilərsiniz. Əgər siz ingilis dili tərcümə fakultəsinə daxil olmusunuzsa, bir il artıq oxumaqla ingilis dili müəllimi ola bilərsiniz. Və ya, ixtisasınızdan tamamilə uzaq olan siyasi elmlər üzrə proqrama daxil ola bilərsiniz və bunun üçün təzədən ali məktəbə qəbul olunmaq lazım deyil. Sadəcə, oxuduğunuzun bir hissəsi o yeni ixtisas üçün də qəbul olunur və çatışmayan müddəti siz burada oxuyursunuz. Bu, məncə ali məktəb tələbəsi üçün çox böyük imkandır, çünki insanlar bəzən seçim etməkdə çox böyük çətinlik çəkirlər. Ümumiyyətlə həyatda ən çətin iş



doğru seçim etməkdir. Bəzən tələbə də, valideynlər də düşünürlər ki, bəlkə başqa cür olsaydı, daha yaxşı olardı.

Yeniliklərdən biri də odur ki, nüfuzlu universitetlərdən olan Kiyev Hüquq və İqtisadiyyat Universiteti ilə bizim əməkdaşlıq müqaviləmiz var və həmin müqaviləyə əsasən siz bu universitetdən ora daxil ola bilərsiniz. Paralel olaraq burda həm bizim müəllimlər, həm ordan gələn müəllimlər sizə dərs deyib, onların da diplomunu ala bilərsiniz. Bəzən elə ixtisaslar ola bilər ki, o ixtisaslar bu gün bizdə yoxdur, amma siz o universitetin ixtisasını burda ala bilərsiniz.

Daha bir yeni cəhət odur ki, Avropanın, Amerikanın və son zamanlar xüsusilə Uzaq Şərqin, yəni Koreya, Yaponiya, Çin və bu cür



digər güclü dövlətlərin universitetləri ilə tələbə mübadiləsi haqqında müqavilələrimiz var; yəni sizin gedib xarici universitetlərdə bir il, bir semestr oxuyub qayıtmağınız üçün heç bir problem yoxdur. Sadəcə, bu, ikinci kursdan sonra olur, çünki əvvəlcə burada bərkiyib sonra getmək lazımdır. Təbii ki, biz çalışqan tələbəni, güvəndiyimiz tələbəni göndəririk ki, orda yaxşı mənada seçilə bilsin. Və bu sahədə təcrübəmiz çox böyükdür. O cümlədən, Avropada, bəlkə eşitmisiniz, Erasmus deyilən tələbə mübadiləsi proqramı var. Azərbaycandan 3 universitet artıq 4 ildir ki, ora daxildir. O 3 universitetdən biri də Xəzər Universitəsidir. Bu proqram üzrə tələbələrimiz müxtəlif səviyyədə (bakalavr, magistr, doktor) təhsil almaq üçün Avropanın 7 universitetinə gedib və xərcləri



bütünlüklə Avropa Birliyi ödəyir.

Digər yeniliklərdən onu qeyd etmək istərdim ki, Xəzər Universitəsinin nəzdində fəaliyyət göstərən "Dünya" məktəbimiz bir çox uğurlar qazanmışdır və bu ilin yanvar ayında da "Dünya" məktəbi beynəlxalq status aldı, "İB statusu" deyirlər ona – "İB world school". Bu o deməkdir ki, məktəbin son 2 ilini ingilis dilində təhsil almaqla şagirdlər dünyada tanınan beynəlxalq diplom və Azərbaycan orta təhsil attestatı alacaqlar. IB diplomunun üzünə dünyanın bütün universitetləri açıqdır, gedib oxumaq olar. Bu il həmin məktəbimizin ilk məzunluq təntənəsi oldu və ilk dəfə Azərbaycanda elə bir məktəb əmələ gəldi ki, onun məzunları 100% ali məktəblərə qəbul olundu, yəni orda oxuyan bütün şagirdlər yüksək



balla müxtəlif universitetlərə daxil oldular. Onların yarıdan çoxu Xəzər Universitəsinin tələbəsidir. Mən onları da təbrik edirəm.

Yeniliklərdən birini də görürsü-



nüz: nə zamandır gecə-gündüz, həmçinin bütün yayı da çox sürətlə işləyərək, bu müasir binanı, kompleksi meydana gətirdik. İnanın ki, burda zövqsüz və keyfiyyətsiz heç nə yoxdur. Xaricindən tutmuş daxilinə kimi, içərisindəki auditoriyası, kitabxanası, yeməkxanası və digər hər şey tam müasirdir, bəlkə Avropanın çox universitetlərində belə şərait yoxdur və biz bunu davam etdiririk. Sadəcə, binanı biz çox sürətlə hazırladıq ki, siz bu gün burda təhsilə, tədrisə başlayasınız. Əlbəttə, ali məktəbin gücü orda çalışan insanların səviyyəsindədir. Xəzər Universitəsində görkəmli alimlər, görkəmli sənətkarlar çalışırlar, onlar həvəslə bildiklərini gənclərə öyrədirlər. Ali məktəbin gücü bir də orda oxuyan gənclərin istedadı və çalışqanlığı ilə bağlıdır. Və əlbəttə ki, ali məktəbin gücü onun kitabxanasıdır, onun labaratoriyasıdır, onun yaratdığı şəraitdir. Biz, dediyim kimi, bu şəraiti kəskin surətdə yaxşılaşdırırıq. Heç şübhəniz olmasın ki, biz bu işi davam etdirəcəyik. Biz artıq Xəzər Universitəsinin idman kompleksi üzərində işləməyə başlamışıq, güclü bir idman kompleksi yaradacağıq və mən ümid edirəm ki, gələcəkdə siz Xəzər Universitəsinin daha neçə bu cür binasını görəcəksiniz.

Mən sizin hamınızı təbrik edirəm.Siz nə qədər sevinirsinizsə, həyəcan keçirirsinizsə, ən azı biz də o qədər həyəcan keçiririk, çünki burada çalışan insanlar, rektordan ən sadə işçisinə qədər, bu universitəni yarandığı gündən bir uşaq kimi böyüdürük, inkişaf etdiririk. Məqsəd yalnız Azərbaycan təhsil sisteminə ciddi yenilik gətirməkdir, yüksək səviyyə gətirməkdir və bu səbəbdən də burda böyük miqdarda xaricilər də təhsil alırlar. Bir ucu ABŞ, bir ucu Koreyadan, dünyanın hər nöqtəsindən, şimaldan, cənubdan, demək olar ki, bütün qitələrdən bura gənclər gəlir, müxtəlif səviyyədə, doktorantura, bakalavr, magistr səviyyəsində təhsil alırlar. Bu da universitetin gücünü göstərən əlamətlərdən biridir. Biz özümüzü



çox xoşbəxt hesab edirik ki, auditoriyaya girəndə bir çox millətlərin, bir çox ölkələrin nümayən-







dələri bərabər oxuyurlar, yəni siz burda həm də dünyanı öyrənirsiniz. Azərbaycan gözəldir, Azərbaycanı biz sevirik, amma Azərbaycan dünyanın kiçik bir guşəsidir və universitənin məqsədi sizi dünyanın hər yerini anlamaq, orda işləmək, çalışmaq səviyyəsində yetişdirməkdir.

Əziz tələbələr, valideynlər, müəllimlər! Hamınızı təbrik edirəm, bu yeni dərs ilində sizə cansağlığı, uğurlar arzulayıram!











"XƏZƏR"İN İKİ TƏLƏBƏSİ PREZİDENT TƏQAÜDÇÜSÜDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2009-1010-cu il üçün ali məktəblərə qəbul imtahanlarında ən yüksək nəticə göstərən 102 gəncə təqaüd təyin edilmişdir. Xəzər Universitəsinin də iki tələbəsi – **Ağayev Eldar Savadxan oğlu** (biznesin idarə olunması ixtisası) və **Rəcəbov Rəcəb Məmməd oğlu** (maliyyə ixtisası) Prezident təqaüdünə layiq görülmüşlər. *(12-ci səhifədə müxbirimizin onlarla müsahibəsi verilmişdir).*Tələbələrimizi təbrik edir, təhsildə onlara uğurlar arzulayırıq.

Oklahoma Universitetinin nümayəndələri ilə görüş



Sentyabrın 28-də Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı Oklahoma Universitetinin nümayəndələrini qəbul etdi. Nümayəndə heyətinin tərkibinə Ph.D, professor, məzunların işi üzrə koordinator Şida Henneberry, Ph.D., biosistemlərin işlənməsi üzrə mütəxəssis Karol Jones, Ph.D., professor, iqtisadçı Jon T. Biermacher, universitetin xarici əlaqələr üzrə vitse-prezidenti Anita Gordy-Vatkins, professor, baytar klinik elmlər şöbəsinin əməkdaşı Lionel James Dauson, Oklahoma Kollecinin Kənd təsərrüfatı şöbənin müdiri Şannon Kanninqham, polkovnik, Oklahoma Universiteti mühafizə xidmətinin işçisi Cerry Kusic daxil idilər. Görüşdə ABŞ-ın Azərbaycandakı səfirliyinin əməkdaşı Kennet S. Iverson iştirak edirdi.

Professor Hamlet İsaxanlı Xəzər Universitəsinin tədris sistemi haqqında məlumat verdi, nümayəndə heyəti üzvlərinin suallarını cavablandırdı. Görüşdə, həmçinin, bir sıra gələcək əməkdaşlıq məsələləri müzakirə olundu.

"Dəyişmə" mövzusunda elmi-psixoloji açıq dərs



Sentyabrın 28-də Xəzər Universitəsi Psixoloji Məsləhət və Psixoterapiya Mərkəzinin direktoru Ülkər İsayevanın təşkilatçılığı ilə "Dəyişmə" mövzusunda elmi-psixoloji açıq dərs keçirildi. Texas Wesleyan Universitetinin psixologiya müəllimi Dr. Edita Ruzgyte mühazirə oxudu.

Dr. Edita Ruzgyte ümumilikdə cəmiyyətdə və cəmiyyəti təşkil edən xalqlar, ölkələr, onların adət-ənənələri, sosial qaydalar və bütün bunlarla əlaqədar fərdlər arasında yaşanan müxtəlif dəyişikliklər haqqında geniş məlumat verdi. Azərbaycan xalqının yeni dəyişikliklərə nə qədər açıq olması və hansı sahələrdə buna mühüm ehtiyac duyulması məsələləri maraqlı müzakirələrə səbəb oldu. Tələbələrlə asan dialoqa girən Dr. Edita Ruzgyte hər bir fərdin özündə etdiyi kiçik dəyişikliklərin nəticədə böyük dəyişikliklərə səbəb olduğunu və bunun bütünlükdə həmin xalqa faydalar gətirməsindən söhbət açdı.

Dərs əsnasında Dr. Edita Ruzgytenin payladığı psixoloji testlər tələbələrin xüsusi marağına səbəb oldu. Dərsdə iştirak edən psixoloq Ülkər İsayeva dərsin psixologiya elmindən faydalanan tələbələrə müsbət təsirinin olacağını bildirdi. Xəzər Universitəsi Psixoloji Məsləhət və Psixoterapiya Mərkəzinin tələbələr üçün təşkil etdiyi bu dərs universitə kollektivi və tələbələr tərəfindən yüksək qiymətləndirildi.

Günel Mustafayeva

Xəzər Universitəsinin rektoru Hamlet İsaxanlının Xorvatiyaya səfəri

Xəzər Universitəsində 2009-2011-ci illər üçün nəzərdə tutulmuş yeni "Tibb mühəndislik sahəsində kurrikule yaradılması" Tempus layihəsinin icrasına başlanmışdır.

Layihəyə 17 Avropa institutu və 6 əməkdaş ölkənin institutları cəlb olunmuşdur. Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı sentyabrın 24-26-da bu layihə çərçivəsində Xorvatiyanın Dubrovnik şəhərində səfərdə olmuşdur.

ELMİ-İNZİBATİ ŞURANIN İCLASI

Sentyabrın 30-da Xəzər Universitəsi Elmi-İnzibati Şurasının növbəti iclası olmuşdur. İclasa universitənin rektoru, professor **Hamlet İsaxanlı** sədrlik etmişdir. İclasda:

məzunlar haqqında;

cari məsələlər müzakirə olunmuş və müvafiq qərarlar qəbul edilmişdir.

Şura məzunlar məsələsi ilə əlaqədar Memarlıq, mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı **Rafiq Əhmədov,** İqtisadiyyat və menecment fakültəsinin dekanı **Məhəmməd Nuriyev,** Humanitar və sosial elmlər, Hüquq fakültələrinin dekanı **Cabir Xəlilov,** Tibb, stomatologiya, ictimai səhiyyə fakültəsinin dekanı **Nigar Bağırova** və Təhsil fakültəsinin dekanı **Elza Səmədovanın** məlumatlarını dinləyərək, məzunların təqdim olunmuş siyahısını təsdiq etdi.

Şura üzvlərinə məlumat verildi ki, bu buraxılışda universitəni 221 məzun bitirir. Onlardan 171-i bakalavr, 28-i magistrdir. Tibb, stomatologiya, ictimai səhiyyə fakültəsini bitirən 22 məzun beşillik ali təhsil almışdır.

Cari məsələlər qismində universitənin prorektoru **Rafiq Əhmədov** çıxış edərək, yeni istifadəyə verilmiş tədris korpusundan təyinatı üzrə səmərəli istifadə edilməsi haqqında təkliflərini bildirdi. Universitə Tələbə Məclisinin prezidenti **Pərviz Muradov** təhsil haqqının ödənilməsi ilə bağlı tələbələrin bir qisminin problemindən danışdı. Sədrlik edən **Hamlet İsaxanlı** tələbələrdən təhsil haqqının universitənin daxili normativ aktlarına tam müvafiq qaydada toplandığını izah etdi və bununla belə, məsələyə rektorluqda baxılacağını bildirdi.

Bununla da Elmi-İnzibati Şuranın növbəti iclası başa çatdı.

TQDK-nın Prezident təqaüdünə layiq görülən tələbələr barədə məlumatı

Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) 2009/2010-cu tədris ili üçün ali məktəblərə qəbul imtahanlarında ən yüksək nəticə göstərən 102 gəncə Azərbaycan prezidenti İlham Əliyevin sərəncamı ilə təqaüd təyin edilməsi barədə məlumat yayıb.

TQDK-nın mətbuat xidmətindən verilən məlumatda qeyd olunub ki, 2009/2010-cu tədris ili üçün respublikanın ali məktəblərinə keçirilən tələbə qəbulu müsabiqəsində iştirak edənlərin 996 nəfəri yüksək nəticə göstərərək, 600-dən yuxarı bal toplayıb. Qeyd olunub ki, 2009/2010-cu tədris ili üçün ali məktəblərə qəbul imtahanlarında ən yüksək nəticə göstərən, namizədliyi TQDK tərəfindən Prezident təqaüdünə təqdim edilən və prezidentin sərəncamı ilə təqaüd təyin edilən 102 gəncdən 29 nəfəri Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, 25 nəfəri Azərbaycan Tibb Universitetinin, 18 nəfəri Bakı Dövlət Universitetinin, 12 nəfəri "Qafqaz" Universitetinin, 9 nəfəri Azərbaycan Dövlət Neft Akademiyasının, 6 nəfəri Azərbaycan Dövlət İqtisad Universitetinin, 2 nəfəri Xəzər Universitetinin, 1 nəfəri Naxçıvan Dövlət Universitetinin tələbəsidir.

"Gürcüstanda Azərbaycan məktəblərinin tarixi" adlı kitab

Tiflisdə "Gürcüstanda Azərbaycan məktəblərinin tarixi" adlı kitab çapdan çıxıb. APA-nın Gürcüstan bürosunun xəbərinə görə, Heydər Əliyev adına Gürcüstan-Azərbaycan Universitetinin rektoru, pedaqoji elmlər doktoru Novruz Bayramovun müəllifi olduğu kitabda 1921-1940-cı illərdə Gürcüstanda fəaliyyət göstərmiş azərbaycandilli məktəblərin tarixindən, vəziyyətindən, pedaqoji kadrların hazırlanmasından bəhs olunur. Nəşrdə, eyni zamanda, Borçalıda məktəblər açan, dərs deyən müəllimlər haqqında geniş məlumat verilir.

Yenicə çapdan çıxmış kitab ali məktəblər üçün dərslik, tədqiqatçılar üçün isə mənbə kimi nəzərdə tutulub.

GƏLƏCƏYƏ DOĞRU İNAMLI ADDIMLARLA

Jurnalımızın ötən nömrəsində universitəmizə yüksək balla qəbul olunan abituriyentlərin siyahısını dərc etmişdik. Bu nömrədə müxbirimizin onlara verdiyi suallara bir-birindən maraqlı və fərqli cavablarını diqqətinizə çatdırırıq.

SUALLAR

1. Özünüz haqda məlumat verin.
2. Xəzər Universitəsinə qəbul olunduğunuzu biləndə, hansı hissləri keçirdiniz.?
3. Xəzər Universitəsini seçərkən kimdənsə məsləhət aldınız, yoxsa öz seçiminiz idi?
4. Universitə haqda əvvəlcədən məlumatınız vardımı?
5. Xəzər Universitəsini seçərkən ən çox diqqətinizi çəkən nə olub?
6. Siz universitə həyatını necə təsəvvür edirsiniz?
7. Xəzər Universitəsinin digər universitetlərdən fərqi?
8. Sonda, sizlə bərabər yeni qəbul olunanlara demək istədikləriniz?

CAVABLAR



AĞAYEV ELDAR
(İqtisadiyyat və menecment fakültəsi)

1. 1992-ci il yanvarın 27-də Bakı şəhərində anadan olmuşam. Səkkizinci sinfə qədər 265, sonra isə 287 nömrəli məktəbdə təhsil almışam. Məktəb illəri dövründə riyaziyyat fənnindən müxtəlif olimpiadalarda iştirak etmiş və qalib olmuşam. Ötən il respublikada gənc istedadlar arasında keçirilmiş yarışda birinci yeri tutmuşam. 672 balla Xəzər universitəsinə (biznesin idarə olunması ixtisası) qəbul olunmuşam.

2. Təbii qarşıladım və sevindim. Prezident təqaüdünə layiq görülməyim isə sevincimi daha da artırdı.

3. Qardaşımla məsləhətləşməm əsasında seçmişəm.

4. Bəli. Xəzər Universitəsi tanınmış universitet olduğuna görə əvvəlcədən məlumatım olub.

5. Keyfiyyətli və xarici dildə təhsil.

6. Hələ ki təsəvvürüm yoxdur.

7. Yüksək səviyyəli təhsil.

8. Xəzər Universitəsinin imkanlarından istifadə edərək, ixtisaslı kadr olmağa nail olsunlar.

***



RƏCƏBOV RƏCƏB
(İqtisadiyyat və menecment fakültəsi)

1. 1992-ci il aprelin 17-də Bakı şəhərində anadan olmuşam. 1998-ci ildə 160 saylı məktəbin birinci sinfinə getmişəm. 2004-2007-ci illərdə Bakı Özəl Türk Liseyində oxumuşam. 2007-ci ildən isə BDU-nun nəzdindəki "Gənc istedadlar" liseyində təhsilimi davam etdirmişəm. 2009-cu ildə bu liseyi bitirib, 670 balla Xəzər Universitəsinə (maliyyə ixtisası) daxil olmuşam. Oxuduğum müddətdə riyaziyyat üzrə respublika olimpiadalarında II və III yerlərə layiq görülmüşəm. İntellekt olimpiadasında iki nominasiya üzrə I yer tutmuşam.

2. Həm universitetə qəbul olunmağıma, həm də prezident təqaüdü almağıma görə qürur hissi keçirdim.

3. Məsləhət almışam.

4. Bir az.

5. Təhsilin ingilis dilində olması və yüksək standartlara uyğun təhsil sistemi.

6. Müəmmali və maraqlı.

7. Rüşvətin olmaması və xaricdə oxumaq imkanı.

8. Uğurlar və müvəffəqiyyətlər.

***



QASIMZADƏ SEVİNC
(Humanitar və sosial elmlər fakültəsi)

1. 1992-ci il avqustun 18-də Bakıda anadan olmuşam. 9 saylı orta məktəbin məzunuyam. 614 balla Xəzər Universitəsinə (tərcümə ixtisası) daxil olmuşam.

2. Çox sevindim.

3. Mənim orta məktəbdən ingilis dilinə marağım çox böyük idi. Bu istəyimə görə ailəm mənə dəstək oldu və mən bu ixtisası seçdim. Universitet seçiminə gələndə isə, ailəmlə birlikdə bütün universitetlərlə maraqlandıq. Xəzər Universitəsində təhsilin çox ciddi və yüksək keyfiyyətli olduğu haqda əvvəllər də eşitdiklərimiz bir daha təsdiqini tapdıqdan sonra isə məhz Xəzər Universitəsini seçdik.

4. Xəzər Universitəsində keyfiyyətli təhsil sistemi olması haqda əvvəlki illərdə eşitmişdik.

5. Eşitdiklərimizə görə, Xəzər Universitəsində təhsil hər bir tələbəyə fərdi yanaşma üzərində qurulub və burada öz üzərində çalışan tələbələr üçün inkişaf etmək imkanları yaradılır. Mənim də məqsədim məhz yaxşı kadr kimi yetişmək olduğundan, Xəzər Universitəsini seçdim.

6. İnanıram ki, eşitdiklərim özünü doğruldacaq. Yəni universitə həyatımda özümü savadlı, mehriban və qayğıkeş müəllim kollektivi icərisində və yeni tanış olacağım tələbə yoldaşlarımın əhatəsində təsəvvür edirəm.

7. Eşitdiklərimə görə, Xəzər Universitəsində çox ciddi nizam-intizam var. Heç bir müəllimin haqsız olaraq tələbəni incitməsinə və hər hansısa ad ilə rüşvət istəməsinə imkan verilmir. Tələbənin inkişafı üçün tədrisdən əlavə maraqlı tədbirlər keçirilir. Təhsil zamanı yüksək nəticələr göstərən tələbələr xarici ölkələrə təcrübə keçmək üçün göndərilir. Yaxşı oxuyan tələbələrin gələcəkdə iş ilə təmin olunmasına şərait yaradılır.

8. Hamımız savadlı və keyfiyyətli kadr olaraq yetişməliyik. Bunun üçün isə bizdən oxumaq, universitə rəhbərliyi və müəllim heyətindən isə öyrətmək tələb olunur.

***



HÜSEYNOV AZƏR
(Memarlıq, mühəndislik və tətbiqi elmlər fakültəsi)

1. 1992-ci il iyunun 27-də Sumqayıt şəhərində müəllim ailəsində anadan olmuşam. 1998-ci ildə Sumqayıt şəhər 10 saylı orta məktəbin 1-ci sinfinə daxil olmuşam. 2004-cü ildə imtahan verib Sumqayıt Özəl Türk Liseyinə (SÖTL) qəbul olunmuşam. 2009-cu ildə məktəbi uğurla bitirib, 591 balla Xəzər Universitəsinə (kompüter mühəndisliyi ixtisası) daxil olmuşam.

Hobbim: Discovery kanalına baxmaq, YouTube-dan video endirmək.

Arzum: Gibson firmasından elektrogitara almaq və insanların həyatını rahatlaşdıracaq nəyisə icad etmək.

2. Sevindim.

3. Valideynlərimdən, dayılarımdan, müəllimlərimdən, Xəzər Universitəsini bitirənlərdən və hal-hazırda burada təhsil alan bir çox tələbədən.

4. Olub. Bacım 2007-ci ildə universitənin olimpiadasında iştirak edərək ilk 6-lığa daxil olub, dayımqızı hal-hazırda bu universitənin magistr pilləsində təhsil alır.

5. Rüşvətin olmaması, keyfiyyətli və yüksək təhsilin olması, ingiliscə təhsil almaq imkanı.

6. Universitə həyatının çox maraqlı və zəngin keçəcəyini düşünürəm.

7. Rüşvətin olmaması, xarici universitetlərlə əlaqənin, təhsilin ingilis dilində olması.

8. İstədiklərinə nail olmağı arzulayıram.

***



MƏMMƏDOV İSA
(İqtisadiyyat və menecment fakültəsi)

1. 1992-ci il oktyabrın 21-də Bakı şəhərində anadan olmuşam. 267 saylı məktəb-liseyin məzunuyam. Məktəb illərindən, əsasən, riyaziyyat və ingilis dili fənlərinə böyük həvəs və marağım var. Boş vaxtımda ingiliscə kitab oxumağı xoşlayıram. 577 balla Xəzər Universitəsinə (maliyyə ixtisası) qəbul olunmuşam.

2. Məqsədim Xəzər Universitəsində təhsil almaq olduğuna görə çox sevindim.

3. Müəllimlərimdən məsləhət aldıqdan sonra Xəzər Universitəsini seçdim.

4. Xəzər Universitəsini bitirən tələbələr geniş məlumat vermişdilər.

5. Ən çox diqqətimi çəkən Xəzər Universitəsindəki yüksək təhsil olub.

6. İndidən təsəvvur eləmək çətindir, amma məncə, məktəb həyatından fərqli həyat olacaq. O həyatı yaşamaq hər məktəblinin arzusudur.

7. Xəzər Universitəsindəki yüksək təhsil onu digər universitetlərdən fərqləndirir.

8. Mənimlə birgə Xəzər Universitəsinə daxil olan tələbələrə həm həyatda, həm də dərsdə uğurlar arzulayıram. Və Xəzər Universitəsini seçməkdə heç də səhv addım atmadıqlarını demək istəyirəm.

***

1. 1992-ci il fevralın 28-də Salyan şəhərində anadan olmuşam. "Dünya" məktəbinin məzunuyam. 526 balla Xəzər Universitəsinə (mühasibat uçotu və audit ixtisası) daxil olmuşam.



RZALI ZİYA
(İqtisadiyyat və menecment fakültəsi)

2. "Qeyri-adi hisslər keçirmədim" desəm, doğru olar. Qarşıma qoyduğum məqsədə nail olduğum üçün indi gələcəyə daha inamla baxıram.

3. Yox, tamamilə öz seçimim idi.

4. Bəli, var idi, necə də olmaya bilər? Dediyim kimi, Xəzər Universitəsi nəzdində fəaliyyət göstərən "Dünya" məkəbini bitirmişəm.

5. Təhsilin ingilis dilində aparılması və bələd olduğum kimi – yüksək təhsil. Bir də, Xəzər Universitəsinin diplomunun Avropanın qabaqcıl ölkələrində tanınması. Azərbaycanda kredit sistemini tətbiq edən ilk universitetin də Xəzər Universitəsi olduğunu bilirəm. Ümumiyyətlə, bir sıra səbəblər diqqətimi çəkib.

6. Məktəb həyatından fərqli həyat kimi. Düşünürəm ki, buradakı gənclər daha yetkin, həyata baxışı fərqli olan gənclərdir. Məncə, universitetdəki dostluqlar incə tellərlə bağlanmayan dostluqlardır. Amma mən belə düşünürəm ki, Xəzər universitəsi elə "Dünya" məktəbinin davamıdır.

7. Fərqi, bayaq qeyd etdiyim kimi, kredit sisteminin tətbiqidir. Amma əsas fərqli cəhətləri universitədə oxuduğum müddətdə görəcəyimə əminəm. Çünki "Dünya" məktəbi də fərqli bir məktəbdir, təbii ki, fərqi də orda oxuyanlar yaxşı bilir.

8. Qəbul olunduqları ixtisasın oyrənilməsində onlara uğurlar arzu edirəm. İxtisaslı kadr kimi yetişmək üçün tam təhsil almaq lazımdır. Çünki Azərbaycanda ixtisaslı kadrlara ehtiyac var.

Vüsalə MƏMMƏDOVA,
Humanitar və sosial elmlər fakültəsinin ikinci kurs tələbəsi

"Xəzər"in fəxri - idmançılar

İdmançı tələbələrimizin həm ölkə miqyasında keçirilən birincilik və çempionatlarda, həm də beynəlxalq yarışlarda fərqlənmələri universitəmizin gözəl ənənələrindəndir. Jurnalımızın bu nömrəsində onlardan ikisi ilə sizi tanış edirik.

İqtisadiyyat və menecment fakültəsinin ikinci kurs tələbəsi Ramin Mehrəliyev bu il iyun ayının 18-21-də Ukraynanın Odessa şəhərində keçirilmiş kişilər arasında Karate-Do versiyalı qaydasız döyüş üzrə dünya çümpionatında ikinci yeri tutub.

Həmin fakültənin üçüncü kurs tələbəsi Ziya Namazov sambo üzrə gənclər arasında Azərbaycan kuboku uğrunda yarışların qalibi olub. Ziya hazırda Azərbaycan milli komandasının tərkibində oktyabr ayının 15-19-da Bolqarıstanın paytaxtı Sofiya şəhərində sambo güləşi üzrə gənclər arasında keçiriləcək dünya birinciliyinə hazırlaşır.

İdmançı tələbələrimizi qazandıqları nailiyyətlər münasibətilə təbrik edir, gələcək yarışlarda onlara uğurlar arzulayırıq. Eyni zamanda, universitəmizin digər tələbələrini də idmanla daha ciddi məşğul olmağa, layiqli qələbələr qazanmağa çağırırıq!

Müxbirimizin Ramin və Ziya ilə müsahibəsini sizə təqdim edirik.

"İDMANÇI HƏR BİR VƏZİYYƏTƏ HAZIR OLMALIDIR"

– Ramin, özün haqda oxucularımıza məlumat ver...

– 2000-ci ildən idmanla məşğul oluram. Birinci idmanın kickboxing növü ilə başlamışam. Sonra kickboxinglə yanaşı tayboxinglə məşğul oldum. Son 2 ildə Karate-do versiyası üzrə qaydasız döyüş növünə keçmişəm. 2008-ci ildə bu versiya üzrə ölkə çempionu oldum. Prezident kubokunun sahibiyəm. Dəfələrlə beynəlxalq turnirlərdə qalib olmuşam. Hal-hazırda bu üç idman növü ilə məşğulam.

– Karate idman növünü nəyə görə seçdin?

– Kickboxing qaydasız döyüş növünə yaxın olduğu üçün bu sahəyə meylim çoxdur. Iyunun 18-21də Ukraynanın Odessa şəhərində dünya çempionatı keçirildi. 40 dan çox ölkədən idmançıların iştirak etdiyi bu yarışda kişilər arasında ikinci yerə çıxdım. 5 ölkənin – Norveç, İran, Fransa, İtaliya və Ukrayna idmançısın məğlub etdim. Ən maraqlı döyüşüm sonuncusu oldu. Ev sahibi Ukrayna idmançısı ikiqat dünya çempionu və Avropa çempionu idi. O biri idmançılar kimi onu da məğlub etdim.

– Bilirik ki, sən yarışda zədə aldığın üçün finalda iştirak edə bilmədin. Qələbəyə bir addım qalmış bu sənə necə təsir etdi?

– İdmançı hər bir vəziyyətə hazır olmalıdır. Ciddi zədə aldığım üçün final döyüşündən imtina etdim. Finalda rəqibim türk idmançısı idi. Azərbaycan bu yarışda 12 idmançı ilə təmsil olunmuşdu. 4 medalla vətənə döndük –1 qızıl, 2 gümüş və 1 bürünc.



– Sənca, yarışda uğur qazanmaq üçün idmançıda ən əsas hansı keyfiyyət olmalıdır?

– Yaxşı idmançı olmaq üçün ilk növbədə davamlı məşq etmək və verilən tapşırıqları yerinə yetirməkdir. Məşq çim Sevindik Mehdisoyla daim buna nail olmağa çalışırıq.

– Ən çox hansı ölkənin idmançısı ilə döyüşmək istərdin?

– Mənim üçün rəqiblərin fərqi yoxdur. Yalnız erməni idmançısı ilə döyüşməyi daha çox istərdim.

– Bundan sonrakı yarışlara necə hazırlaşırsan?

– Öndə Avropa çempionatı var, kickboxing üzrə həmin yarışa ciddi hazırlaşıram, çünki bu yarış ilk dəfə olaraq Azərbaycanda keçiriləcək.

– Uğurlar diləyirəm...

"HƏR BİR QƏLƏBƏ İDMANÇIYA SEVİNC BƏXŞ EDİR"



– Bu idman növü ilə neçə ildir məşğulsan?

– Artıq yeddi ildir ki, cüdo idman növü ilə məşğul oluram. Bildiyiniz kimi, cüdo və sambo bir-birinə çox oxşar idman növləridir. Yalnız bəzi qaydaları fərqlidir. Buna görə də həm cüdo, həm də sambo yarışlarında iştirak edə bilirəm.

– Samboda ən çox diqqətini cəlb edən nə olub?

– Samboda diqqətimi cəlb edən onun cüdodan bir qədər sərt olmasıdır. Cüdoda daha diqqətli, samboda isə daha sərt və dözümlü olmalısan.

– Bu günə qədər bir çox yarışlarda iştirak etmisən, ən yadda qalanı hansı olub?

– Hər dəfə bir hadisə yadıma düşəndə həm utanıram, həm də gülürəm. Uşaqlar arasında keçirilən yarışda güləşirdim və yarımfinala kimi gəlmişdim. Yarımfinalda rəqibimə hiylə gəlib, onun mənə qarşı qaydalara uyğun olmayan fənd işlətdiyini göstərmək istəyirdim və belimi tutub yerdə uzanmışdım. Demək olar ki, hiyləm alınırdı və hakimlər rəqibi yarışdan uzaqlaşdırmaq istəyirdilər. Atam isə mənim ciddi zədə aldığımı zənn edərək, məni yarışdan çıxardı. Və beləliklə hiyləm ozumu yarışdan uzaqlaşdırdı.

– Yarışlarda sənə ən çox kimlər dəstək olur?

– Əsasən ailəm və dostlarım.

– Hazırda Xəzər Universitəsinin tələbəsisən. Həm yarışlar, həm də dərslər – ikisi bir yerdə çətin olmur ki?..

– Bəlkə də başqa universitetlərdə oxusaydım, mane olardı, lakin Xəzər Universitəsində Boloniya sistemi olduğuna görə dərslərimdə seçim edə bilirəm. Hələ ki, şükürlər olsun, həm dərslərimi, həm də məşqlərimi çatdira bilirəm.

– Azərbaycan çempionatında qalib oldun, bu qələbəni qazananda nələr hiss etdin?

– Ən azından, çəkdiyin zəhmətin itmədiyini hiss edirsən. Sözsüz ki, hər bir qələbə idmançıya sevinc bəxş edir, böyük və kiçikliyiindən asılı olmayaraq...

– Qələbə sevincini ən əvvəl kimlərlə paylaşdın?

– Finalda olarkən dostlarım mənim dəstəyimə gəldilər, atam da bütün yarışlarda həmişə mənimlədir. Sevincimi birinci növbədə onlarla bölüşdüm, sonra isə tanışlar və qohumlarla...

– Dünya çempionatına bir aydan da az vaxt qalır. Yarışlara hazırlıq necə gedir? Məşqçin kimdir?

– Şükür Allaha, hər şey yaxşıdır. Məşqlərimiz mütəmadi davam edir. Cüdo üzrə şəxsi məşqçim Avropa çempionatının finalçısı Tərlan Poladovdur, hal-hazırda isə məşqlərimiz sambo üzrə yığma komandanın baş məşqçisi Mübariz İbrahimovun rəhbərliyi altında keçir.

– Bu sənin ölkədən kənarda ilk yarışın olacaq, yoxsa belə yarışlarda gücünü sınamısan?

– İnşallah, bu mənim ölkədən kənarda ilk rəsmi çıxışım olacaq.

– Bu "ilk" yarışda sənə uğurlar arzulayırıq!

Vüsalə MƏMMƏDOVA,
Humanitar və sosial elmlər fakültəsinin ikinci kurs tələbəsi

TƏLƏBƏLƏRİMİZİN YARADICILIĞI

ŞAİRLƏR ŞEİR SƏNƏTİ HAQQINDA

Şeirin çox qədim tarixi vardır. Şərqdə, o cümlədən Azərbaycanda şeir sənəti inkişaf etmişdir və sevilir. Qədim və orta əsrlər Azərbaycan şeir nümunələrini "Dədə Qorqud" dastanında görmək olar.



Azərbaycan ədəbiyyatında tarix boyu gözəl, nəcib şeirlər yazılmışdır. Azərbaycan islam dinini qəbul etdikdən sonra şairlər öz şeirlərini ərəb dilində yazmağa başlamışlar. Bu dövr VII-XI əsrləri əhatə edir. VII-VIII əsrlərdə yaşamış Musa Şəhavət, İsmayıl ibn Yəsar, Əbül-Abbas kimi Azərbaycan şairləri öz şeirlərini ərəb dilində yazmışlar. Bu dövrdə klassik ədəbiyyatda aparıcı janr olan qəsidə janrından daha çox istifadə edilirdi. Bu dövrü ərəbdilli poeziya dövrü də adlandırmaq olar, çünki bütün əsərlər ərəb dilində yazılırdı.

XI əsrdə yaşamış Mənsur Təbrizi, Xətib Təbrizi, İskafi Zəncani kimi azərbaycanlı şair və alimlər də ərəb dilində yazıb-yaratmışlar. Bu dövrdə yaşayan görkəmli ədəbiyyatşünas, tənqidçi və dilçi Xətib Təbrizi şeir sənətindən bəhs edərkən demişdir: *"Şeiri tənqid etmək onu yazmaqdan çətindir"*.

X əsrdən başlayaraq fars dili Şərqdə şeir dili kimi geniş yayılmağa başladı. Azərbaycanda isə bu ənənə XI əsrdən başlayır və XX əsrin əvvəllərinə qədər davam edir. Farsdilli şeirin ilk nümayəndəsi Qətran Təbrizidir (1012-1088). Q.Təbrizi əsasən qəzəl, qəsidə, rübai kimi janrlarda şeirlər yazmış, şeir sənəti haqqında maraqlı fikirlər söyləmişdir.

XI-XII əsri saray ədəbiyyatı adlandırmaq olar. Çünki bu dövrün şairləri şeirlərini əsasən hökmdarlara həsr etmişdilər. XII əsrdə şeiri yüksəklərə qaldıran Azərbaycan şairlərindən biri də Nizami Gəncəvidir.



N.Gəncəvi özünün məşhur məsnəvisi – "Xəmsə"si ilə yanaşı qəzəl, qəsidə, rübai kimi şeir janrlarında da yazıb-yaratmışdır. O, şeirə, sənətə həmişə yüksək qiymət vermişdir. Şair "Sirlər xəzinəsi" poemasından əvvəl yazdığı fəxriyyəsində qəzəllərindən bəhs edir. Bu mövzuya şair poemalarında da toxunur. "İskəndərnamə" poemasında belə yazır:

Simurğtək çəkilim xəlvət bucağa,
Şerimdən nəşələr verim qulağa.
Dastanı sevənlər, şeiri duyanlar
Nəğmələr dinləmir bir çox zaman var.



XIII-XVI əsrlərdə Azərbaycan türkcəsində şeirlər yazılmağa başlandı.

Nəsiminin yaradıcılığında türkdilli şeir bədii və fəlsəfi cəhətdən yüksək səviyyəyə çatdı. XIII əsrdə şeirin tyuq janrından da istifadə olunmuşdur. Bu janrı ilk dəfə Qazi Bürhanəddin ədəbiyyatımıza gətirmişdir. Q.Bürhanəddin şeirlərinin birində belə yazır:

Düri mənzum edər şerüm ləbindən
söylər olursam,
Pərakəndə qılur müşki açarsam sözi
saçından.

Bu dövrdə tuyuğ, müstəzad, tər-

cibənd kimi şeir şəkillərinin meydana gəlməsi ədəbiyyatımızı daha da zənginləşdirdi. Bu dövrdə əruz vəzni ilə yanaşı heca vəznindən də istifadə olunmağa başlandı.

Ş.İ.Xətainin yaradıcılığında biz həm əruz vəzninin nümunələrini, həm də heca vəzninin nümunələrini görürük. Xətai də müxtəlif əsərlərində şeir sənəti haqqında fikirlərini bildirmişdir.

Şeirə, sənətə yüksək qiymət verən sənətkarlarımızdan biri də dahi şairimiz Məhəmməd Füzulidir. Şair şeirdən forma gözəlliyi deyil, həm də məzmun gözəlliyi və in-



formativlik tələb etmiş, öz bədii təcrübəsində bunları ustalıqla reallaşdırmışdır. "Leyli və Məcnun" poemasında o, bu məsələyə toxunaraq yazır:

Gəh tərzi-qəsidə eylərəm saz,
Şəhbazım olur büləndpərvaz.
Gəh dəbi-qəzəl olur şüarım,
Ol dəbə rəvan verər qərarım.
Gəh məsnəviyə olub həvəsnak,
Ol bəhrdə istərəm düri-pak.

Füzuli bu siyahıda adını çəkmədiyi başqa şeir şəkillərində də, xüsusən qəsidə janrında ölməz əsərlər yaratmışdır. Qəsidələr divanının dibaçəsində Füzuli bu janrın üstünlüklərini belə qeyd edir:

Məsnəvi üsulu,qəzəl sənəti
Qazanmış olsa da, aləmdə şöhrət,
Ancaq bir eybi var; ifratla təfrit
Nə onda dad qoymuş,nə bunda ləzzət
Təkcə qəsidədir hər xeyir işdə
Cilvələr saçaraq sayılır sənət.



Füzuli öz sələflərindən və müasirlərindən fərqli olaraq qəsidələrində zəmanə hökmdarlarından daha çox islam dininin böyük şəxsiyyətlərini mədh etmişdir. Bütün bunlarla yanaşı, Füzuli Azərbaycan ədəbiyyatında daha çox qəzəl ustadı kimi tanınır. Füzulinin lirik şeirdə qəzələ üstünlük verməsi, ilk növbədə, bu şeir janrının şairin təbiətinə və ruhuna daha çox uyğun gəlməsi ilə izah edilir. Şair özü türkcə divanının giriş hissəsində qəzəllə bağlı fikirlərini belə açıqlayır;

Qəzəldir səfabəxşi-əhli-nəzər,
Qəzəldir güli - büstani-hünər.
Qəzəl bildirir şairin qüdrətin,
Qəzəl artırır nazimin şöhrətin.
Qəzəl de ki, məşhuri- dövran ola,
Oxumaq da, yazmaq da asan ola.

Göründüyü kimi, Füzuli yüksək zövq sahibləri olan insanlar üçün qəzəli səfa bağışlayan nemət və hünər bağçasının gülü adlandırır. Füzuliyə görə, məhz qəzəl şairin bacarıq və qüdrətini üzə çıxarır, onun şan-şöhrətini artırır. Ümumiyyətlə, Füzuli şeirə yüksək qiymət vermiş və şeirin müxtəlif janrlarında unudulmaz əsərlər yaratmışdır.

XVII-XVIII əsrlərdə şeirin qoşma janrı aparıcı oldu. Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım kimi aşıqlardan sonra Molla Pənah Vaqif və Molla Vəli Vidadi öz yüksək sənətkarlıqları ilə şeirin xalqa yaxınlaşmasında müstəsna rol oynadılar. Get-gedə canlı xalq dilində yazılan satira ortaya çıxdı. Bunu Qasım Bəy Zakirin yaradıcılığında görürük. XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşamış Mirzə Ələkbər Sabirin şeirləri özünəməxsusluğu ilə sələflərindən və xələflərindən seçilir. M.Ə.Sabir şeir-



lə bağlı fikirlərini belə diqqətə çatdırmışdır:

Şeir bir gövhəri -yekdaneyi-
ziqiymətdir,
Salmaram vəsfi-druğ ilə onu
qiymətdən.
Deyərəm həcv, sözüm doğru,
kəlamım şirin,
Əhli-zövqə verərəm nəşə bu xoş
şərbətdən.

XX əsrdə artıq şeir haqqında şeir və məqalələr daha çox yazılmağa başlandı.Şeirin tədqiqat obyekti genişləndi. Bu dövrdə Əhməd Cavadın şeirləri də diqqəti cəlb edir. Ə.Cavadın şeirləri, özünün yazdığı kimi, iki mənbədən qidalanmışdır: birincisi islamdan,

ikincisi xalq ədəbiyyatından; yəni bu iki mənbə Ə.Cavad yaradıcılığında vəhdət təşkil edir. Ə.Cavad "Şeirimə" adlı şeirində poeziyaya vurğunluğunu belə ifadə etmişdir:

Ey çürük ruhumda doğan nəşidə,
Bən səni çox sevdim doğduğun gündə.

XX əsrdə şeirlərinin dərinliyi ilə seçilən şairlərimizdən biri də Mikayıl Müşfiqdir. Müşfiq öz poetik baxışlarını şeirlərində ifadə edən sənətkarlardandır. O, cəmi 30 il ömür sürsə də, Azərbaycan



poeziyası xəzinəsinə böyük töhfə vermişdir. M.Müşfiqin "Sənətkar" adlı şeirində sənətin böyük və şərəfli olması fikri aşılanır. Şairə görə, sənətkar qəlblərə, ürəklərə yol tapmağı bacarmalıdır:

Ah, nə böyük şərəfdir sənətkar olmaq,
Könüllər dünyasından xəbərdar olmaq!
Nə xoşdur bir hiss kimi qəlblərə girmək
səssiz-sorğusuz.
Bütün fənalıqları yıxıb devirmək
qara-qorxusuz.

Müşfiqin şeirə, sənətə həvəsi tükənməz idi. "M.Müşfiq poeziya vurğunu idi" desək, yanılmarıq. O, məqalələrinin birində yazırdı: "*Mənim ən bədbəxt dəqiqəm şeirsiz keçən dəqiqəmdir*".

Yaxud:

Ey şeir yazmaqla keçən günlərim,
Siz ki, ən vəfalı günlərimsiniz.

"Şeirim" adlı şeirində isə Müşfiq şeirin sadə, axıcı olmasının vacibliyini vurğulayır:

Dərinlik çox gözəldir, sadə olursa,
Nə çıxar o şeirdən başımı yorsa?

XX-XXI əsrlər Azərbaycan poeziyasında şeir və onun məziyyətləri haqqında çoxlu şeirlər yazılmışdır. XX əsrdə öz yaradıcılığının özünəməxsusluğu, axıcılığı ilə seçilən şairlərdən biri də S.Vurğundur. S.Vurğun yaradıcılığa çox erkən başlamış, lakin hələ erkən yaşlarında yazdığı şeirləri dərin mənalar ifadə edir. Başqa şairlər kimi S.Vurğun da şeir, sənət haqqında bir sıra şeirlər yazmışdır. Buna nümunə olaraq "Sənət eşqi" şeirin göstərə bilərik:

Vuruldum o gün ki şerə, sənətə
Unutdum sevdiyim əyləncələri.
Aşiqəm insana və təbiətə
Əlim qələm tutub yazandan bəri.


XX əsr Cənubi Azərbaycan ədə-



biyyatının ən görkəmli nümayəndəsi Məhəmmədhüseyn Şəhriyardır. M.Şəhriyarın şeirlərində şeir, sənət haqqında dəyərli fikirlər vardır. Bu baxımdan M.Şəhriyarın "Şeir və hikmət" şeiri diqqəti cəlb edir. Şairə görə, şeir həyatın özüdür, həyatın gövdəsidir. Şair insanın şeirsiz yaşaya bilməyəcəyindən danışır, şeirsiz cənnətin cəhənnəmdən fərqlənmədiyini diqqətə çatdırır:

İnsanlar şeirsiz yaşaya bilməz,
Şerə kəm baxana insan deyilməz.
Ey şeir,həyatım, ömrüm sənindir,
Sözümün işığı sətirlərindir.
Şeirsiz bir dünya kədər, qəm kimi,
Şeirsiz cənnət də cəhənnəm kimi.

Yuxarıda sadalanan şeirlərdən başqa Səməd Vurğunun "Şeirim",



Süleyman Rüstəmin "Şeir", Rəsul Rzanın "Aydındır şeir dili", Xəlil Rza Ulutürkün "Mənim şeirim", Nəbi Xəzrinin "Şeir mənim üçün bir kainatdır", "Şeir nədir mənim üçün", Ramiz Rövşənin "Çıxır", "Bir quş kimi uçdum özüm", Hamlet İsaxanlının "Şeir yolu", "Şeirlərim", Zəlimxan Yaqubun "Şeirim" və s. poetik nümunələri də misal göstərmək olar.

Əlbəttə ki, Azərbaycan ədəbiyyatında şeir, sənət haqqında şeirlər- fikirlər çoxdur və mövzu ayrıca geniş tədqiqat obyekti ola bilər.

Fərid KƏRİMOV,
Tədris fakültəsinin Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə üçüncü kurs tələbəsi

MƏDƏNİYYƏT

RUHU SAFLAŞDIRAN MUSİQİ



Sentyabrın 18-i – dahi Üzeyir Hacıbəylinin doğum günü ölkəmizdə milli musiqi bayramı kimi qeyd edilir. Bu, həqiqətən böyük bayramdır: həmin gün biz dahi bəstəkarın, öz məsləkdaşı Müslüm Maqomayevlə birlikdə haqlı olaraq Azərbaycan professional musiqisinin banisi hesab edilən Üzeyir bəyin möhtəşəm melodiyalarını bir daha – yüzüncü, mininci, bəlkə də milyonuncu dəfə dinləmək, onların dərin mənası üzərində bir daha düşünmək imkanı əldə edirik.

Böyük sənətkarın əsərlərində elə bir ecazkar qüvvə var ki, hər kəs - musiqiyə birbaşa aidiyyəti olanlar da, olmayanlar da bu əsərlərin ruhunu anlayır, hiss edir. Bir də ki, hər bir həqiqi azərbaycanlının daxilində özünəməxsus bir musiqi səslənməsinə şübhə etməyə dəyməz. Bu təsəvvür bəlkə də xeyli dərəcədə onunla əlaqədardır ki, hamımızın sevdiyi və çox populyar olan xalq musiqisinin onlarca nümunəsi, onun qüdrətli qollarından biri olan muğamlar - "Rast", "Şur", "Segah", "Bayatı Kürd", "Qarabağ şikəstəsi" ... bizim milli ruhumuzla həmahəngdir.

Üzeyir bəy 1908-ci ildə "Leyli və Məcnun" operasını – müsəlman Şərqində ilk operanı yaratmaqla Azərbaycanda milli opera sənətinin və bütövlükdə peşəkar bəstəkar yaradıcılığının əsasını qoymuşdur. Ötən əsrin 30-cu illərində isə Hacıbəyli Azərbaycan musiqi xəzinəsinə daha bir inci bəxş etdi. "Koroğlu" operası kimi bir şedevr yaratdı. Bu möhtəşəm səhnə əsəri milli musiqi sənətimizin klassik nümunəsinə çevrildi.

Beləliklə, Fikrət Əmirov, Niyazi, Qara Qarayev, Cövdət Hacıyev, Şəfiqə Axundova və bir sıra bəstəkarların gələcək uğurlarının təməli qoyulmuş oldu. Məsələn, Fikrət Əmirovun simfonik muğamları vaxtilə ABŞ-da görkəmli dirijor Leopold Stokovskinin rəhbərliyi ilə Boston orkestrinin ifasında səslənmişdir. Azərbaycan bəstəkarlarının sonrakı nəslinin nümayəndələri Soltan Hacıbəyov, Arif Məlikov, Vasif Adıgözəlov, Xəyyam Mirzəzadə, Aqşin Əlizadə, Firəngiz Əlizadə və başqaları XX əsr Azərbaycan musiqisinin nailiyyətlərini daha da zənginləşdirmişlər.

Dahi sənətkarın daha bir xidmətini xatırlamaq yerinə düşər. O, Azərbaycan xalq musiqisinin əsaslarına həsr edilmiş nadir tədqiqat işini öz davamçılarına miras qoyub getmişdir. Müəllif bu əsərdə müxtəlif muğam ladları əsasında yeni musiqi əsərlərinin yaradılması mexanizmlərini şərh etmişdir. Muğama həsr edilmiş simpoziumda Mehriban xanım Əliyevanın dediyi kimi, neçə-neçə nəslin sevdiyi, dildən düşməyən çoxsaylı əsərlərin müəllifi olan bu dahi bəstəkar həm ənənəvi muğam musiqisini, həm də Avropa simfonizmini eyni dərəcədə başa düşməyə, onların gözəlliklərini duymağa imkan verən musiqi təhsili sistemi yaratmışdır.

Ü.Hacıbəylinin möhtəşəm yaradıcılığı buna əyani sübutdur. Əvvəlcə onun özünün, sonralar isə şagirdlərinin və davamçılarının əsərləri bütün coğrafi hüdudları və dil maneələrini dəf edərək müxtəlif xalqlar arasında geniş yayılmış və sevilmişdir. Təkcə "Arşın mal alan" musiqili komediyasının adını çəkmək kifayətdir. Milli musiqi üslubu ilə Avropa professional musiqi bəstəçiliyi texnikasının sintezinə əyani nümunə olan bu əsər 40 dilə tərcümə edilmiş, dünyanın onlarca ölkəsinin səhnələrində tamaşaya qoyulmuşdur.

Sonralar Qara Qarayevin "Yeddi gözəl" və "İl-

dırımlı yollarla" baletləri dünyanın bir sıra səhnələrində göstərilmiş, Arif Məlikovun "Məhəbbət əfsanəsi" baleti 30-a yaxın ölkənin tamaşaçıları tərəfindən alqışlanmışdır. Azərbaycan bəstəkarlarının əsərləri daim beynəlxalq müsabiqələrdə, musiqi simpoziumlarında, festivallarda səslənir, öz bənzərsizliyi, təravəti və yeniliyi ilə dinləyicilərin və tamaşaçıların ruhunu oxşayır. Məncə, bunun bir səbəbi də həmin əsərlərin "dilinin" dinləyicilər üçün anlaşıqlı və maraqlı, onların köklərinin doğma xalq musiqisinə bağlı olmasıdır.

Deyirlər, sənətkar öz milli mədəniyyətinə yalnız o halda xeyir verə bilər ki, o özü həmin mədəniyyətin içində, onun kontekstində yaşasın. Hörmətli xalq yazıçımız Anara məxsus olan bu fikirlə razılaşmamaq çətindir. İstedadlı musiqiçilər ailəsində böyümüş Üzeyir bəyin həyat və yaradıcılığı bunu təsdiq edir. Məlum olduğu kimi, o, xalq musiqisini kiçik yaşlarından öyrənmiş və sevmişdi, yaxşı muğam oxuyur, tar çalırdı. Bu qüdrətli istedadın mayası musiqi ilə yoğrulmuşdur.



Dəfələrlə yəqin etmişəm ki, həqiqətən yaxşı musiqi insanın qəlbinə yol tapır, xüsusi bir ovqat yaradır, hissləri oyadır, xatirələri canlandırır, müxtəlif assosiasiyalar doğurur. Musiqini dinlədikcə sanki insan yüksəklərə ucalır, ulu Tanrıya daha yaxın olur. Yaxşı musiqi bizi ruhən saflaşdırır, ucaldır. Bizə bu cür nemət bəxş edənlərə daim minnətdar olmalıyıq. Özü də bu sözlər təkcə musiqini yaradanlara aid deyil. Musiqini ifa edənlərdən də çox şey asılıdır.

Bu məqamda maestro Niyazinin fitri dirijorluq sənətini xatırlamaq istərdim. Musiqi bu insanın qanına-canına hopmuşdu. Maestro özü də gözəl musiqi nümunələri bəstələyirdi. Onun Azərbaycan bəstəkarlarının əsərlərini necə coşqun ilhamla təqdim etdiyini təsvir etməyə söz tapmaq çətindir. O, Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, Cövdət Hacıyev və digər bəstəkarların şah əsərlərini dinləyicilərə xüsusi şövqlə çatdırırdı.

Adətən, Azərbaycan musiqi sənətindən söz düşəndə mütəxəssislər onun janr rəngarəngliyini xüsusi qeyd edirlər. Bu da Hacıbəylidən başlanmışdır. Mahnı, romans, kamera-instrumental və simfonik janrın əsasını qoyanlardan biri o deyildimi?! İlk Azərbaycan kantataları, xalq çalğı alətləri orkestri üçün ilk əsərlər onun ilhamının məhsulu deyilmi?! Azərbaycan mədəniyyətinin patriarxının milli operanın və musiqili komediyanın banisi olması isə hamıya məlumdur.

Onun varisləri də eyni yol ilə getdilər. Qara Qarayev və Cövdət Hacıyevlə bərabər Arif Məlikov, Xəyyam Mirzəzadə, Musa Mirzəyev, Oqtay Zülfüqarov da instrumental pyeslər, trio və kvartetlər yazmışlar. Ötən əsrin 50-60-cı illərində Soltan Hacıbəyov, Cahangir Cahangirov, Rauf Hacıyev və Vasif Adıgözəlovun skripka üçün konsertlərinin ardınca Elmira Nəzirovanın fortepiano üçün konsertləri, onun Fikrət Əmirovla birlikdə yazdığı ərəb mövzularında konsert və bir sıra başqa gözəl əsərlər yaranmışdır. Haqlı olaraq dünya şöhrəti qazanmış Tofiq Quliyev isə ən müxtəlif janrlarda saysız - hesabsız mahnılar bəstələmişdir.

Ötən əsrin axırlarında coşqun inkişafının növbəti mərhələsinə qədəm qoymuş Azərbaycan musiqi mədəniyyəti müstəqillik illərində daha yüksəklərə pərvazlanmışdır.

Azərbaycan musiqiçilərinin yaradıcılıq axtarışları davam edir. İncəsənət xadimlərimiz bu gün də maraqlı ideyalar irəli sürür, müasir musiqi mədəniyyətinin ən yaxşı ənənələrinə, yaşlı nəslin nümayəndələrinin, ilk növbədə böyük Üzeyir Hacıbəylinin qazandığı sənət nailiyyətlərinə, milli folklordan qaynaqlanan prinsiplərə əsaslanaraq, dünyada çox populyar olan musiqi əsərlərinin yeni parlaq nümunələrini yaradırlar.

Deyirlər, sivilizasiyanın uğurları istedadlı insanların sayı ilə ölçülür. Tarixin ayrı-ayrı mərhələlərini təmsil edən, əcdadlarımız və müasirlərimizlə gələcək nəsillər arasında əlaqə yaradan məhz belə insanlardır. Yuxarıda deyilənlərin mahiyyətinə dərindən varanda, öz yaradıcılığı ilə dünya mədəniyyəti xəzinəsinə əvəzsiz töhfələr vermiş Azərbaycan xalqının görkəmli nümayəndələrini xatırlayanda, bu sözlərin həqiqət olduğu şübhə doğurmur.

Elmira Əliyeva,
AzərTAc-ın müxbiri



ALMANİYADA MİRZƏ ŞƏFİ VAZEHİN XATİRƏ LÖVHƏSİ

Alman-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Çingiz Abdullayevin AzərTAc-a verdiyi məlumata görə, sentyabrın 25-də Aşağı Saksoniya Əyalətinin Payne şəhərində Mirzə Şəfi Vazehin xatirə lövhəsi açılmışdır.

Həyatının çox hissəsini Qafqazda keçirmiş Fridrix Bodenştet Payne şəhərində anadan olmuş və məlum olduğu kimi, „Mirzə Şəfi Vazehin mahnıları" əsəri ilə məşhurlaşmışdır. Tədbir Payne Şəhər Bələdiyyəsi və Alman-Azərbaycan Dostluq Cəmiyyətinin təşkilatçılığı, Azərbaycanın Almaniyadakı səfirliyinin dəstəyi ilə həyata keçmişdir.

GÖRKƏMLİ MUSİQİŞÜNAS ALİM MİR MÖHSÜN NƏVVABA HƏSR OLUNMUŞ TƏDBİR



Sentyabrın 23-də Üzeyir Hacıbəylinin ev-muzeyində Beynəlxalq Musiqi Həftəsi çərçivəsində görkəmli musiqişünas alim Mir Möhsün Nəvvaba həsr olunmuş tədbir keçirilmişdir.

Musiqişünasların, incəsənət xadimlərinin iştirak etdikləri tədbiri giriş sözü ilə açan muzeyin direktoru, əməkdar incəsənət xadimi Sərdar Fərəcov görkəmli alimin yaradıcılığından danışmışdır.

Tədbirdə çıxış edən professor Zemfira Səfərova Mir Möhsün Nəvvabın həyat və fəaliyyətindən geniş söhbət açmış və muzeyə müəllifi olduğu "Azərbaycanın musiqi elmi - XIII-XX əsrlər", "Şərq musiqisinin peyğəmbəri" və "Əsrlərə həsr olunan illər" kitablarını hədiyyə etmişdir.

Bildirilmişdir ki, "Təzkireyi-Nəvvab", "Qarabağ şairləri", "Nəsihətnamə", "Firdovsiyə nəzirə" və s. əsərlərin müəllifi olan musiqişünas həm də rəssam kimi tanınmışdır. Mir Möhsün Nəvvabın musiqiyə aid bir çox əsərlərinin də olduğu diqqətə çatdırılmışdır. O, muğamı öyrənmək və ifa etmək istəyənlərə praktiki vəsait kimi "Vüzuh ül-ərqam" ("Rəqəmlərin aydınlaşdırılması") traktatını yazmışdır. Əsərdə o dövrün əsas muğamları, muğam təranələrinin yaradılmasının nəzəri qaydaları, onların ifa tərzi, şeir mətnlərinə münasibət haqqında məlumat verilmişdir. Traktat Azərbaycan musiqisinin nəşr olunduğu ilk əsər və qiymətli tarixi sənəd olaraq XIX əsrin ikinci yarısında Azərbaycan xalq musiqi mədəniyyətinin yüksək səviyyəsini sübut edir.

Vurğulanmışdır ki, klassik ədəbiyyatın müxtəlif janrlarında əsərlər yazmış Mir Möhsün Nəvvab, həmçinin, Şuşada ilk musiqi məktəblərinin yaradıcılarından olmuşdur.

Sonra Şuşa Dövlət Musiqili Dram Teatrının aktyorları ədibin qəzəl və şeirlərini söyləmiş, incəsənət ustaları konsert proqramı ilə çıxış etmişlər.

"ÜZEYİR HACIBƏYLİ. BİBLİOQRAFİYA" KİTABININ TƏQDİMATI

Sentyabrın 18-də M.F.Axundov adına Milli Kitabxanada Beynəlxalq Musiqi Həftəsi çərçivəsində "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından "Üzeyir Hacıbəyli. Biblioqrafiya" kitabı təqdim olunmuşdur.

Layihənin rəhbəri mədəniyyət və turizm naziri Əbülfəs Qarayevdir.

Tədbiri giriş sözü ilə açan Milli Kitabxananın direktoru Kərim Tahirov kitabxananın əməkdaşları tərəfindən tərtib edilmiş biblioqrafik kitabda dahi bəstəkarın həyat və yaradıcılığının hərtərəfli işıqlandırıldığını bildirmişdir. Kitab 1905-ci ildən 2008-ci ilədək olan dövrü əhatə edir və dörd bölmədən ibarətdir. Bölmələrə bəstəkarın həyat və yaradıcılığının əsas məqamları, yaradıcılıq yolunun ümumi xarakteristikasına həsr olunmuş oçerk, bəstəkarın musiqi əsərləri, kitabları, ayrı-ayrı məcmuələrdə, jurnallarda, qəzetlərdə dərc olunmuş məqalələri, eləcə də Üzeyir Hacıbəyli haqqında ədəbiyyat daxildir.

Tədbirdə çıxış edən Mədəniyyət və Turizm Nazirliyi aparatının rəhbəri Firudin Qurbanov Üzeyir Hacıbəylinin Azərbaycan klassik musiqisinin inkişafında əvəzsiz xidmətlərindən danışmış, bəstəkarın həyat və yaradıcılığını əks etdirən bu biblioqrafiyanın əhəmiyyətli mənbə olduğunu diqqətə çatdırmışdır.

Biblioqrafiya bəstəkarlar, musiqişünaslar, tədqiqatçılar, Azərbaycan Dövlət Musiqi Akademiyasının müəllim və tələbələri, eləcə də bütün musiqisevərlər üçün dəyərli töhfədir.

TƏHSİL HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

(Əvvəli ötən nömrədə)

III FƏSİL
TƏHSİL SİSTEMİNİN İDARƏ OLUNMASI, TƏHSİL SUBYEKTLƏRİNİN HÜQUQLARI, VƏZİFƏLƏRİ VƏ SOSİAL MÜDAFİƏSİ

Maddə 29. Təhsil sahəsində dövlətin vəzifələri

29.0. Təhsil sahəsində dövlətin vəzifələri aşağıdakılardır:

29.0.1. təhsil sahəsində vahid dövlət siyasətini müəyyənləşdirmək və onun həyata keçirilməsini təmin etmək;

29.0.2. milli təhsil sisteminin inkişaf konsepsiyasını və əsas prioritetlərini müəyyən etmək;

29.0.3. milli təhsil sisteminin inkişafı üçün müxtəlif istiqamətli dövlət proqramlarını təsdiq etmək və onların icrasına nəzarəti həyata keçirmək;

29.0.4. kadr hazırlığının prioritetlərini və istiqamətlərini, yüksək dərəcəli elmi-pedaqoji kadr hazırlığı proqramlarını müəyyən etmək;

29.0.5. təhsil sahəsində dövlət siyasətinin və dövlət proqramlarının həyata keçirilməsinin monitorinqini aparmaq;

29.0.6. milli təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiyasını, beynəlxalq standartlara cavab verən təhsil şəraitinin və mühitinin yaradılmasını təmin etmək;

29.0.7. təhsil sahəsinin inkişafına ayrılan dövlət büdcəsi vəsaitlərinin həcmini və dövlət təhsil qrantlarının məbləğini müəyyən etmək və dövlət təhsil müəssisələrinin maliyyələşdirilməsini həyata keçirmək;

29.0.8. hər büdcə ili üzrə dövlət təhsil sisteminin maliyyələşdirilməsi məqsədilə hər bir təhsilalana (şagirdə, tələbəyə, doktoranta və s.) düşən təhsil xərclərinin miqdarını və maliyyə normativlərini müəyyən etmək;

29.0.9. ilk peşə-ixtisas, ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu planını müəyyənləşdirmək;

29.0.10. müəyyən edilmiş qaydada abituriyentlərin biliyinin qiymətləndirilməsini həyata keçirmək;

29.0.11. «Tələbə-məzun» dövlət elektron məlumat sistemini yaratmaq və ondan istifadəni təmin etmək;

29.0.12. təhsil pillələri üzrə dövlət təhsil standartlarını və proqramlarını (kurikulumları) təsdiq etmək və təhsilin müvafiq dövlət standartlarına uyğun təşkilinə nəzarəti həyata keçirmək;

29.0.13. dövlət təhsil müəssisələrinin rəhbərlərini qanunvericiliklə müəyyən edilmiş qaydada vəzifəyə təyin etmək və vəzifədən azad etmək;

29.0.14. dövlət təhsil müəssisəsində çalışan professor-müəllim heyəti üçün akademik və inzibati vəzifə tutmanın yaş həddini müəyyən etmək;

29.0.15. təhsil səviyyəsinə uyğun olaraq təhsil müəssisələrinin nümunəvi nizamnamələrini təsdiq etmək;

29.0.16. dövlət təhsil müəssisələrinin nizamnaməsini təsdiq etmək, bələdiyyə və özəl təhsil müəssisələrinin nizamnamələrinə rəy vermək;

29.0.17. təhsil prosesinin təşkilinə dair ümumi tələbləri müəyyən etmək;

29.0.18. təhsil sahəsində dövlətlərarası, regional və beynəlxalq inkişaf proqramlarının həyata keçirilməsini təmin etmək;

29.0.19. təhsil sahəsində vahid statistik məlumat sisteminin yaradılmasını təmin etmək;

29.0.20. təhsil haqqında dövlət sənədlərinin nümunələrini və onların verilməsi qaydalarını təsdiq etmək;

29.0.21. xarici ölkələrin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası) qaydalarını müəyyən etmək, ixtisasların tanınmasını və nostrifikasiyanı həyata keçirmək;

29.0.22. təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarını müəyyən etmək;

29.0.23. təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normaları təsdiq etmək, ümumi sanitariya-gigiyena tələblərini, şagird yerləri ilə təminat normativlərini müəyyənləşdirmək;

29.0.24. təhsil müəssisəsinin fəaliyyətinə xüsusi razılıq (lisenziya) vermək və onu ləğv etmək;

29.0.25. ilk peşə-ixtisas, orta ixtisas və ali təhsil üzrə ixtisasların təsnifatını təsdiq etmək;
29.0.26. təhsil müəssisələrinə elmi-metodik rəhbərliyi və nəzarəti həyata keçirmək;
29.0.27. təhsil müəssisələrində təhsilin keyfiyyətinə dövlət nəzarətini həyata keçirmək;
29.0.28. təhsil müəssisələrinin akkreditasiyası qaydalarını müəyyən etmək və akkreditasiyanı həyata keçirmək;
29.0.29. təhsil müəssisələrində təhsilverənlərin və təhsilalanların attestasiyasının, o cümlədən yekun attestasiyasının aparılması qaydalarını müəyyən etmək və attestasiyanı həyata keçirmək;
29.0.30. təhsili idarəetmə orqanlarının, təhsil müəssisələrinin, təhsillə bağlı ictimai birliklərin və qeyri-hökumət təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsini təşkil etmək;
29.0.31. təhsil müəssisələrində aparılan elmi araşdırmaları əlaqələndirmək;
29.0.32. təhsil sisteminin fəaliyyətini tənzimləyən normativ hüquqi aktlar qəbul etmək, onları dəyişdirmək və ləğv etmək;
29.0.33. təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris vasitələrinin hazırlanmasını, təsdiqlənməsini və nəşrini təmin etmək;
29.0.34. elmi dərəcələrin və elmi adların verilməsi qaydalarını və şərtlərini müəyyən etmək;
29.0.35. dövlət təhsil müəssisələri işçilərinin əməyinin stimullaşdırılmasını, o cümlədən mükafatlandırılmasını həyata keçirmək, xüsusi istedadı ilə fərqlənən təhsilalanlar üçün adlı və məqsədli təqaüdlər təsis etmək;
29.0.36. dövlət təhsil müəssisələrinin tədris, elmi, elmi-metodik, informasiya - kommunikasiya texnologiyaları və digər texniki vasitələrlə təminatını həyata keçirmək;
29.0.37. baza tədris planlarını və proqramlarını təsdiq etmək;
29.0.38. mütəxəssis-kadrlara, o cümlədən pedaqoji kadrlara olan real tələbatı müəyyənləşdirmək və onların iş yerləri ilə təmin olunmasını tənzimləmək;
29.0.39. icbari ümumi orta təhsilin həyata keçirilməsinə nəzarət etmək;
29.0.40. dövlət təhsil müəssisələrində pulsuz tibbi xidməti təmin etmək;
29.0.41. valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş yetkinlik yaşına çatmayan uşaqların qəyyumluğa (himayəyə) götürülməsini, internat tipli dövlət müəssisələrinə göndərilməsini təşkil etmək, qəyyumların və himayəçilərin öz funksiyalarını yerinə yetirməsinə nəzarət etmək, sağlamlıq imkanları məhdud uşaqların müvafiq olaraq xüsusi təhsil və sosial müdafiə müəssisələrinə göndərilməsini təmin etmək;
29.0.42. təhsil sahəsində planlaşdırma, proqnozlaşdırma, əlaqələndirmə, təminat, təchizat və qiymətləndirməni təmin etmək.

Maddə 30. Təhsil müəssisəsinin idarə olunması

30.1. Təhsil müəssisəsi aşkarlıq, şəffaflıq və demokratiklik prinsipləri əsasında bu Qanuna, digər normativ hüquqi aktlara və öz nizamnaməsinə uyğun idarə edilir.
30.2. Dövlət təhsil müəssisəsinə rəhbərliyi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təyin edilmiş dövlət təhsil müəssisəsinin rəhbəri (rəhbərliyi) həyata keçirir. Dövlət təhsil müəssisəsinin ali idarəetmə orqanı elmi və pedaqoji şuralardır. Elmi və pedaqoji şuraların yaradılması və fəaliyyəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunmuş əsasnaməyə və təhsil müəssisəsinin nizamnaməsinə əsasən müəyyən edilir.
30.3. Bələdiyyə təhsil müəssisəsinə rəhbərliyi bələdiyyə tərəfindən təyin edilmiş bələdiyyə təhsil müəssisəsinin rəhbəri (rəhbərliyi) həyata keçirir.
30.4. Özəl təhsil müəssisəsinə rəhbərliyi həmin təhsil müəssisəsinin təsisçilər (himayəçilər, qəyyumlar) şurası tərəfindən təyin edilmiş özəl təhsil müəssisəsinin rəhbəri (rəhbərliyi) həyata keçirir.
30.5. Təsisçisi (təsisçiləri) əcnəbilər, vətəndaşlığı olmayan şəxslər və ya xarici hüquqi şəxslər, o cümlədən nizamnamə kapitalının və ya səhmlərinin 51%-dən çoxu əcnəbilərə, vətəndaşlığı olmayan şəxslərə və ya xarici hüquqi şəxslərə məxsus təhsil müəssisəsinin rəhbərinin müavini Azərbaycan Respublikasının vətəndaşı olmalıdır. Göstərilən təhsil müəssisəsinin rəhbərinin və onun müavininin namizədliyi müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılır. Həmin təhsil müəssisəsinin dövlət qeydiyyatına alınması təhsil müəssisəsi rəhbərinin və onun müavininin namizədliyi razılaşdırıldıqdan sonra həyata keçirilə bilər.

30.6. Təhsil müəssisəsinin idarə olunmasının demokratikliyini və şəffaflığını təmin etmək məqsədi ilə təhsil müəssisəsində idarə və özünüidarə orqanları (ümumi yığıncaq, himayəçilər, elmi, elmi-metodiki, pedaqoji, məktəb, valideynlər, təhsilalanlar, qəyyumlar şuraları və s.) yaradıla bilər. Bu qurumların yaradılması qaydaları və səlahiyyətləri təhsil müəssisəsinin nizamnaməsi ilə müəyyən edilir.

30.7. Təhsil müəssisəsinə rəhbərlik həmin müəssisənin statusuna uyğun olaraq rektor, direktor, müdir tərəfindən təhsil müəssisəsinin nizamnaməsinə uyğun həyata keçirilir.

30.8. Dövlət təhsil müəssisəsində akademik və inzibati vəzifələrin tutulmasının yaş həddi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Bu yaş həddinə çatan pedaqoji işçilərin akademik və inzibati vəzifə tutmamaq şərti ilə, təhsil müəssisəsinin tədris və elmi fəaliyyətində tam iştirak etmək hüququ təmin edilir.

30.9. Təhsil müəssisəsinin idarə edilməsi ilə bağlı məsələlərə təhsili idarəetmə orqanları istisna olmaqla, dövlət və yerli özünüidarəetmə orqanlarının və digər təşkilatların müdaxiləsinə yol verilmir.

Maddə 31. Təhsil prosesinin iştirakçıları

31.0. Təhsil prosesinin iştirakçıları aşağıdakılardır:

31.0.1. təhsilalanlar – uşaqlar, şagirdlər, tələbələr, kursantlar, müdavimlər, magistrantlar, doktorantlar və başqaları;

31.0.2. təhsilverənlər (pedaqoji işçilər) – müəllimlər, assistentlər, məsləhətçilər, tyutorlar, tərbiyəçilər, müəllim köməkçiləri, tərbiyəçi köməkçiləri, çağırışaqədərki hazırlıq rəhbərləri, defektoloqlar, loqopedlər, istehsalat təlimi ustaları, praktik psixoloqlar, sosioloq-pedaqoqlar, məktəb uşaq birliklərinin rəhbərləri, metodistlər, təhsil müəssisəsinin dərnək və musiqi rəhbərləri, təhsil müəssisəsinin elmi işçiləri, bilavasitə pedaqoji proseslə məşğul olan mühəndis-texniki, tədris-köməkçi işçilər, dayələr, təlimatçılar, təhsil müəssisəsinin kitabxanaçıları, nəşriyyat-redaksiya işçiləri, təhsili idarəetmə orqanlarının aparıcı struktur bölmələrinin əməkdaşları, təhsil müəssisələrinin və orqanlarının təlim-tərbiyə işi ilə məşğul olan rəhbərləri, təhsil müəssisəsində çalışan konsertmeystrlər və məşqçilər, sosial müdafiə, səhiyyə və digər orqanların bilavasitə pedaqoji fəaliyyətlə məşğul olan işçiləri;

31.0.3. valideynlər və ya digər qanuni nümayəndələr;

31.0.4. təhsili idarəetmə orqanları və bələdiyyələr;

31.0.5. təlim-tərbiyə prosesində iştirak edən digər fiziki və hüquqi şəxslər.

Maddə 32. Təhsilalanların hüquq və vəzifələri

32.1. Təhsilalanların hüquq və vəzifələri Azərbaycan Respublikasının Konstitusiyasına, bu Qanuna və digər normativ hüquqi aktlara, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun müəyyən edilir.

32.2. Bütün təhsil müəssisələrinin təhsilalanları və məzunları bərabər hüquqlara malikdirlər.

32.3. Təhsilalanların hüquqları aşağıdakılardır:

32.3.1. qanunvericilikdə nəzərdə tutulmuş qaydada təhsil müəssisəsinə qəbul olunmaq;

32.3.2. təhsil müəssisəsini, təhsilin istiqamətini, ixtisası, təhsilalma formasını və təhsil dilini sərbəst seçmək;

32.3.3. dövlət təhsil standartlarına uyğun keyfiyyətli təhsil almaq;

32.3.4. müvafiq qaydada təhsilin təmayülünü, təhsil proqramlarını və sinifdənkənar məşğuliyyəti seçmək;

32.3.5. ali təhsil müəssisəsinin tədris planlarına uyğun olaraq tədris fənlərini, semestrlər üzrə kreditlərin miqdarını, təhsilverənləri və tyutorları sərbəst seçmək;

32.3.6. təhsil müəssisəsinin mövcud infrastrukturundan (tədris-istehsalat, elmi tədqiqat, informasiya, mədəni-məişət, idman, sağlamlıq mərkəzlərindən, kitabxanalardan və s.) istifadə etmək;

32.3.7. müəyyən edilmiş qaydada təhsil müəssisəsini və ixtisasını dəyişmək;

32.3.8. elmi tədqiqat fəaliyyəti ilə məşğul olmaq;

32.3.9. fasiləsiz təhsil almaq;

32.3.10. sağlamlıq üçün təhlükəsiz və zərərsiz təhsil şəraiti ilə təmin olunmaq;

32.3.11. insan ləyaqətini və şərəfini alçaldan, insan hüquqlarına zidd hərəkətlərdən müdafiə olunmaq;

32.3.12. müəyyən edilmiş qaydada təhsil müəssisəsində təhsilini müvəqqəti dayandırmaq;

32.3.13. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada biliyinin yenidən qiymətləndirilməsini tələb etmək;
32.3.14. dövlət orta peşə-ixtisas təhsili pilləsində və ali təhsilin hər bir səviyyəsində qanunvericiliyə uyğun olaraq yalnız bir dəfə pulsuz təhsil almaq;
32.3.15. dövlət və bələdiyyə ümumi təhsil müəssisələrində dərsliklərlə pulsuz təmin olunmaq;
32.3.16. təhsil prosesinin təşkilində və idarə olunmasında fəal iştirak etmək, öz fikir və mülahizələrini sərbəst ifadə etmək;
32.3.17. təhsil müəssisəsinin elmi, ictimai, sosial və mədəni həyatında, elmi cəmiyyətlərin, dərnəklərin, assosiasiyaların, birliklərin və digər təşkilatların yaradılmasında iştirak etmək, eləcə də ölkə və beynəlxalq səviyyəli belə təşkilatlara üzv olmaq;
32.3.18. elmi-praktik konfransların, seminarların, yığıncaqların və görüşlərin, habelə təhsil həyatı ilə bağlı digər tədbirlərin keçirilməsində iştirak etmək;
32.3.19. qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.
32.4. Təhsil müəssisəsində qanunvericiliklə müəyyən edilmiş hallar istisna olmaqla, təhsilalanların təhsil prosesi ilə bağlı olmayan işlərə və tədbirlərə cəlb edilməsinə yol verilmir.
32.5. Təhsilalanların vəzifələri aşağıdakılardır:
32.5.1. dövlət təhsil standartlarına uyğun bilik, bacarıq və vərdişlərə yiyələnmək;
32.5.2. pedaqoji işçilərin şərəf və ləyaqətinə hörmətlə yanaşmaq;
32.5.3. təhsil müəssisəsinin nizamnaməsinin tələblərinə riayət etmək;
32.5.4. dövlət, cəmiyyət, ailə və özü qarşısında məsuliyyətini dərk etmək;
32.5.5. təhsil sahəsində qanunvericiliyin tələblərinə, etik normalara və təlim-tərbiyə prosesi ilə bağlı qaydalara əməl etmək;
32.5.6. qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

Maddə 33. Təhsilverənlərin hüquq və vəzifələri

33.1. Təhsilverənlərin hüquq və vəzifələri Azərbaycan Respublikasının Konstitusiyası, bu Qanun və digər normativ hüquqi aktlar, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, təhsil müəssisəsinin nizamnaməsi və daxili intizam qaydaları, eləcə də işəgötürənlərlə təhsilverənlər arasında bağlanılan əmək müqavilələri ilə tənzimlənir.
33.2. Təhsilverənlərin hüquqları aşağıdakılardır:
33.2.1. normal əmək, elmi-pedaqoji iş və təhsil şəraiti, müasir standartlara cavab verən texnologiyalarla təmin olunmaq;
33.2.2. təhsil müəssisəsinin nizamnaməsinə uyğun olaraq təhsil prosesinin təşkilində və idarə olunmasında fəal iştirak etmək;
33.2.3. tədrisin formasını, metodlarını və vasitələrini sərbəst seçmək;
33.2.4. şərəf və ləyaqətinə hörmətlə yanaşılmasını tələb etmək;
33.2.5. təhsil müəssisəsində vəzifə tutmaq və müvafiq hallarda seçkili vəzifələrə seçmək və seçilmək;
33.2.6. ixtisasını artırmaq, yeni ixtisas almaq, staj keçmək, ixtisas və elmi dərəcəsini yüksəltmək;
33.2.7. müəyyən edilmiş hallarda və qaydada mükafatlandırılmaq və təltif olunmaq;
33.2.8. təhsil müəssisəsində uzun müddət qüsursuz çalışan və onun elmi-pedaqoji həyatında mühüm xidmətləri olan professorlara aylıq əmək haqqı və əlavələr, digər güzəştlər və imtiyazlar saxlanılmaqla, akademik və inzibati vəzifədən azad olunmaq şərti ilə məsləhətçi-professor vəzifəsini tutmaq;
33.2.9. qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.
33.3. Təhsilverənlərin vəzifələri aşağıdakılardır:
33.3.1. təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək;
33.3.2. təhsil proqramlarının mənimsənilməsini təmin etmək;
33.3.3. təhsilalanlarda fəal vətəndaş mövqeyi formalaşdırmaq, onları vətənpərvərlik və azərbaycançılıq ruhunda tərbiyə etmək, müstəqil həyata və əmək fəaliyyətinə hazırlamaq;
33.3.4. şəxsi nümunəsi ilə təhsilalanlarda Azərbaycan Respublikasının müstəqilliyinə, Konstitusiyasına və qanunlarına, dövlət rəmzlərinə, Azərbaycan xalqının tarixinə, mədəniyyətinə, dilinə, adət və ənənələrinə, milli və ümumbəşəri dəyərlərə, cəmiyyətə, ətraf mühitə hörmət və qayğı

hissləri aşılamaq;
33.3.5. pedaqoji etika və əxlaq normalarına riayət etmək, müəllim nüfuzunu yüksək tutmaq, ziyalılıq nümunəsi göstərmək;
33.3.6. təhsilalanların şərəf və ləyaqətinə hörmət etmək;
33.3.7. uşaq və gəncləri fiziki və psixi zorakılığın bütün formalarından qorumaq, onları zərərli vərdişlərdən çəkindirmək;
33.3.8. ixtisas və elmi-pedaqoji səviyyəsini yüksəltmək, elmi araşdırmalar aparmaq, əlavə məşğələlər, sinifdənkənar və məktəbdənkənar tədbirlər keçirmək;
33.3.9. qanunvericiliklə müəyyən edilmiş qaydada attestasiyadan keçmək;
33.3.10. qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

Maddə 34. Valideynlərin və ya digər qanuni nümayəndələrin hüquq və vəzifələri

34.1. Valideynlərin və ya digər qanuni nümayəndələrin təhsil sahəsində hüquqları aşağıdakılardır:
34.1.1. yetkinlik yaşına çatmayan övladları (qəyyumluğunda və ya himayəsində olan şəxslər) üçün təlim-tərbiyə müəssisəsini seçmək;
34.1.2. təhsil prosesinin təşkili, tədrisin keyfiyyəti, övladlarının (qəyyumluğunda və ya himayəsində olan şəxslərin) dərsə davamiyyəti, təhsilə marağı və davranışı haqqında məlumat almaq;
34.1.3. təhsilalanların hüquqlarını müdafiə etmək, təhsil müəssisəsinin idarə olunmasında iştirak etmək;
34.1.4. təhsil müəssisəsi ilə əməkdaşlıq etmək, tədris prosesinin təkmilləşdirilməsi və maddi-texniki bazasının yaxşılaşdırılması üçün təkliflər irəli sürmək və könüllü yardımlar etmək;
4.1.5. qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.
34.2. Valideynlərin və ya digər qanuni nümayəndələrin təhsil sahəsində vəzifələri aşağıdakılardır:
34.2.1. övladlarının (qəyyumluğunda və ya himayəsində olan şəxslərin) erkən yaşlarından fiziki, əxlaqi və intellektual inkişafına şərait yaratmaq, onların icbari ümumi orta təhsil almasının təmin olunması və mənəvi yetkinliyi üçün məsuliyyət daşımaq;
34.2.2. övladlarını (qəyyumluğunda və ya himayəsində olan şəxsləri) humanistlik, vətənpərvərlik, azərbaycançılıq, əməksevərlik, öz dilinə, ədəbiyyatına və tarixinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə etmək;
34.2.3. qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

Maddə 35. Təhsilalanların sosial müdafiəsi

35.1. Dövlət ümumi təhsil müəssisələrində təhsilalanlar dərsliklərlə müəyyən edilmiş qaydada dövlət hesabına təmin olunurlar.
35.2. Dövlət ilk peşə-ixtisas, orta ixtisas və ali təhsil müəssisələrində təhsilalanların fəaliyyətini stimullaşdırmaq məqsədi ilə onlara qanunvericiliklə müəyyən edilmiş qaydada təqaüdlər, o cümlədən adlı təqaüdlər verilir və yardımlar göstərilir.
35.3. Təhsilalanlar üçün qanunvericiliyə uyğun olaraq digər sosial müdafiə tədbirləri də tətbiq edilə bilər.
35.4. Özəl təhsil müəssisələrində təhsilalanların sosial müdafiəsi müəssisənin nizamnaməsi ilə tənzimlənir.

Maddə 36. Təhsilverənlərin sosial müdafiəsi

36.1. Dövlət təhsilverənlərin sosial müdafiəsinə təminat verir. Təhsil işçilərinin əmək haqqı və vəzifə (tarif) maaşları işçilərin funksional öhdəlikləri, peşə xüsusiyyətləri, ixtisas dərəcəsi və iş stajı nəzərə alınaraq təyin edilir.
36.2. Dövlət və bələdiyyə təhsil müəssisəsi öz sərəncamında olan büdcədənkənar vəsaitlər hesabına işçilərin əmək haqqına əlavələr və digər stimullaşdırıcı ödənişlər təyin edə bilər.
36.3. Dövlət və bələdiyyə təhsil müəssisələrində işləyən elmi-pedaqoji kadrların vəzifə maaşlarına elmi dərəcələrə və elmi adlara görə əlavələrin həcmi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.
36.4. Sağlamlıq imkanları məhdud, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum, ciddi tərbiyə şəraitinə ehtiyacı olan uşaqlar üçün xüsusi təhsil müəssisələrinin, istedadlı uşaqlar üçün təhsil müəssisələrinin, eləcə də yüksək dağlıq və sərhədyanı ərazilərdə, ucqar yaşayış məntəqələrində çalışan təhsil işçilərinin əmək haqlarına və vəzifə maaşlarına qanunvericiliklə müəyyən edilmiş qaydada əlavələr olunur.
36.5. Pedaqoji profilli ixtisaslar üzrə ali və orta ix-

tisas təhsili müəssisələrini bitirmiş və ümumi təhsil müəssisələrində işə başlamış gənc mütəxəssislər üçün əlavə güzəştlər və stimullaşdırıcı tədbirlər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

36.6. Təhsilverənlərə qanunvericiliklə müəyyən edilmiş qaydada təhsil və yaradıcılıq məzuniyyətləri verilir.

IV FƏSİL
TƏHSİLİN İQTİSADİYYATI

Maddə 37. Təhsil sistemində mülkiyyət münasibətləri

37.1. Təhsil müəssisəsinin əmlakı dövlət, bələdiyyə, təsisçilər, hüquqi və fiziki şəxslər tərəfindən onun mülkiyyətinə və ya istifadəsinə verilən, eləcə də qanunvericiliklə qadağan olunmayan fəaliyyəti nəticəsində əldə etdiyi əmlakdan, o cümlədən ona məxsus əqli mülkiyyət məhsullarından ibarətdir.

37.2. Təhsil müəssisəsi təsisçi tərəfindən torpaq sahəsi, bina və qurğular, avadanlıq, təhsil, istehsal, sosial, mədəni, tibb, iaşə və idman obyektləri, maddi-texniki baza və digər əmlakla təmin edilir.

37.3. Təhsil müəssisəsi mülkiyyətində və istifadəsində olan əmlakın saxlanılması, qorunması və ondan səmərəli istifadə edilməsi üçün məsuliyyət daşıyır. Təhsil müəssisəsinin əmlakının idarə olunması ilə bağlı fəaliyyətinə nəzarəti təsisçi və ya onun səlahiyyət verdiyi şəxs həyata keçirir.

37.4. Dövlət təhsil müəssisəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi və genişləndirilməsi dövlət büdcəsinin vəsaitləri və büdcədənkənar vəsaitlər hesabına həyata keçirilir.

37.5. Təhsil müəssisəsi göstərdiyi xidmətlər (tədris, elmi tədqiqat, məsləhət-konsaltinq, müalicə-profilaktik və digər xidmətlər) nəticəsində daşınar və daşınmaz əmlak, o cümlədən bina, avadanlıq, yeni texnologiya, nəqliyyat vasitələri və s. əldə edə bilər.

37.6. Dövlət mülkiyyətində olan təhsil müəssisəsinin (məktəbəqədər təhsil müəssisələri istisna olunmaqla) özəlləşdirilməsi qadağandır.

37.7. Dövlət təhsil müəssisəsinin büdcədənkənar mənbələrdən daxil olan vəsaitlər hesabına əldə etdiyi əmlak qanunvericiliyə uyğun olaraq onun mülkiyyətinə daxil edilir.

37.8. Dövlət təhsil müəssisəsinin istifadəsinə verilmiş əmlakın geri qaytarılması qanunvericiliklə tənzimlənir.

37.9. Təhsil müəssisəsinin müflis elan edilməsi müvafiq qanunvericiliyə uyğun həyata keçirilir.

Maddə 38. Təhsil müəssisəsinin maliyyələşdirilməsi

38.1. Dövlət təhsilin inkişafına dövlət büdcəsindən və digər mənbələrdən vəsaitlər ayırır.

38.2. Təhsil müəssisəsi qanunvericiliklə müəyyən edilmiş qaydada fiziki və hüquqi şəxslərə müxtəlif ödənişli təhsil xidmətləri göstərmək, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, hüquqi və fiziki şəxslərdən ianələr və könüllü yardımlar almaq hüququna malikdir. Bu mənbələrdən əldə olunan vəsait və digər əmlak dövlət təhsil müəssisəsinə büdcədən ayrılan vəsaitlərin miqdarına təsir göstərmir və onun nizamnaməsinə uyğun olaraq sərbəst istifadə edilir.

38.3. Dövlət ali və orta ixtisas təhsili müəssisələrinin əldə etdiyi mənfəət yalnız təhsilin inkişafına, təhsilalanların və təhsilverənlərin sosial müdafiəsinə yönəldilə bilər.

38.4. Dövlət təhsil müəssisəsinin maliyyələşdirilməsi təhsilin hər pilləsi üzrə müəyyən edilmiş maliyyə normativlərinə əsasən həyata keçirilir. Bu normativlər təhsil müəssisəsinin tipinə, növünə və kateqoriyasına uyğun olaraq hər bir təhsilalana düşən məsrəf məbləği nəzərə alınmaqla müəyyən edilir.

38.5. Zəruri hallarda müvafiq icra hakimiyyəti orqanının qərarı ilə azkomplektli dövlət ümumi təhsil müəssisələri mövcud normativlərdən üstün maliyyələşdirilə bilər.

38.6. Dövlət təhsil müəssisəsi nizamnaməsinə uyğun olaraq, ödənişli təhsildən əldə olunan və digər büdcədənkənar vəsaitlərin xərclənməsi istiqamətlərini və işçilərin maddi həvəsləndirilməsinə ayırmaların xüsusi çəkisini sərbəst müəyyən edir, təhsilverənlərə və təhsilalanlara maddi yardımlar göstərir.

38.7. Dövlət təhsil müəssisəsinin inkişafına, təhsilalanların təhsil haqlarının və təhsillə bağlı xərclərinin ödənilməsinə uzunmüddətli və fərdi kreditlər verilməsini, elmi tədqiqat işlərinin aparılması, doktorantura proqramlarının maliyyələşdirilməsi, beynəlxalq təcrübənin öyrənilməsi və

digər məqsədlər üçün müvafiq qaydada qrantlar ayrılmasını təmin edir. Kreditlərin və qrantların verilməsi qaydaları və şərtləri müvafiq qanunvericilik aktları ilə müəyyən edilir. Dövlət təhsil və elmi tədqiqat qrantları təhsil müəssisəsinin digər fəaliyyət sahələrinin maliyyələşdirilməsinə yönəldilə bilməz.

38.8. Dövlət təhsil sahəsinə investisiyaların, o cümlədən xarici investisiyaların cəlb edilməsi məqsədi ilə əlverişli investisiya mühitinin yaradılmasını təmin edir və bu məqsədlə sərmayəçilərə qanunvericiliklə müəyyən edilmiş qaydada güzəştlər verilir.

38.9. Təhsil sisteminə xarici investisiya qoyuluşu qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir.

Maddə 39. Dövlət və bələdiyyə təhsil müəssisələrinin maliyyələşdirilməsi mənbələri

39.0. Dövlət və bələdiyyə təhsil müəssisələri aşağıdakı mənbələrdən maliyyələşdirilir:

39.0.1. qanunvericiliyə uyğun olaraq dövlət büdcəsinin və yerli büdcənin vəsaitləri;

39.0.2. ödənişli təhsildən daxil olan vəsaitlər;

39.0.3. hüquqi və fiziki şəxslərin, o cümlədən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, xarici hüquqi şəxslərin qanunvericiliyə uyğun olaraq verilən qrantları, vəsiyyət olunan vəsaitləri, ianələri və yardımları;

39.0.4. müsabiqə əsasında dövlət tərəfindən ayrılan elmi tədqiqat qrantları;

39.0.5. təhsil müəssisəsinin təhsil, elm, istehsal, məsləhət (konsaltinq) və qanunvericiliklə müəyyən edilmiş digər xidmətlərdən əldə etdiyi vəsaitlər;

39.0.6. hüquqi və fiziki şəxslərin müqavilə əsasında mütəxəssis hazırlığı, ixtisasartırma və kadrların yenidən hazırlanması üçün ayırdıqları vəsait;

39.0.7. dövlət orqanları tərəfindən maliyyələşdirilən məqsədli proqramlar və layihələr üzrə əldə olunan vəsaitlər;

39.0.8. təhsil müəssisəsinin mülkiyyətində olan fiziki və mənəvi cəhətdən köhnəlmiş avadanlığın, nəqliyyat vasitələrinin və təhsil məqsədləri üçün yararsız olan digər əmlakın satışından qanunvericiliyə uyğun olaraq əldə edilən vəsaitlər;

39.0.9. təhsil müəssisəsinin beynəxalq əməkdaşlıq nəticəsində qanunvericiliyə uyğun olaraq əldə etdiyi qrantlar və vəsaitlər;

39.0.10. qanunvericiliklə qadağan edilməyən digər mənbələrdən əldə olunan vəsaitlər.

Maddə 40. Özəl təhsil müəssisəsinin maliyyələşdirilməsi

40.1. Özəl təhsil müəssisəsi aşağıdakı mənbələrdən maliyyələşdirilir:

40.1.1. təhsil xidmətlərinə görə əldə etdiyi vəsaitlər;

40.1.2. təsisçilərin (himayəçilərin) vəsaitləri;

40.1.3. qanunvericiliyə uyğun olaraq aldıqları qrantların və kreditlərin məbləğləri;

40.1.4. hüquqi və fiziki şəxslərin ianələri, yardımları, vəsiyyət etdikləri əmlak və bağışladıqları hədiyyələr;

40.1.5. təhsil, elm, istehsal, məsləhət (konsaltinq) və qanunvericiliklə müəyyən edilmiş digər xidmətlərdən əldə etdikləri vəsaitlər;

40.1.6. qanunvericiliklə qadağan edilməyən digər mənbələr hesabına əldə olunan vəsaitlər.

40.2. Özəl təhsil müəssisəsi öz maliyyə vəsaitlərini sərbəst idarə edir.

40.3. Özəl təhsil müəssisəsi təhsil haqqının məbləğini hər bir təhsil pilləsi üzrə təhsil proqramlarına uyğun olaraq sərbəst müəyyən edir.

40.4. Özəl təhsil müəssisəsi ilə təhsilalanlar, valideynlər və ya digər qanuni nümayəndələr arasında münasibətlər müqavilə ilə tənzimlənir.

Maddə 41. Təhsil müəssisəsinin sahibkarlıq fəaliyyəti

41.1. Təhsil müəssisəsi əlavə gəlir əldə etmək məqsədi ilə nizamnaməsində nəzərdə tutulmuş qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi sahibkarlıq fəaliyyəti növləri ilə məşğul ola bilər.

41.2. Təhsil müəssisəsi sahibkarlıq fəaliyyətindən əldə etdiyi gəlirlərdən sərbəst istifadə etmək hüququna malikdir. Dövlət təhsil müəssisəsinin sahibkarlıq fəaliyyətindən əldə etdiyi gəlirlər bilavasitə təhsilin inkişafına və işçilərin sosial müdafiəsinə yönəldilir.

41.3. Təhsil müəssisəsi sahibkarlıq fəaliyyətini həyata keçirmək məqsədi ilə qanunvericiliklə müəyyən edilmiş qaydada hüquqi şəxslər yarada bilər və ya başqa hüquqi şəxslərin fəaliyyətində iştirak edə bilər.

Maddə 42. Keyfiyyətsiz təhsilə görə vurulan zərərin ödənilməsi

42.1. Təhsil müəssisəsində təhsilin dövlət təhsil standartlarına uyğun təşkil olunmaması nəticəsində təhsilalanların keyfiyyətsiz hazırlığı müəyyən edildiyi halda vurulmuş zərərin, o cümlədən təhsilalanların başqa təhsil müəssisələrində yenidən hazırlanması üçün zəruri olan xərclərin həmin təhsil müəssisəsi tərəfindən ödənilməsi barədə müvafiq icra hakimiyyəti orqanı tərəfindən məhkəmədə iddia qaldırıla bilər.

42.2. Bu Qanunun 42.1-ci maddəsinə uyğun olaraq iddia yalnız akkreditasiya olunmuş təhsil müəssisəsi barədə akkreditasiya xidməti tərəfindən verilən mənfi rəyə əsasən qaldırıla bilər.

V FƏSİL

TƏHSİL SAHƏSİNDƏ BEYNƏLXALQ ƏLAQƏLƏR

Maddə 43. Təhsil sahəsində beynəlxalq əməkdaşlıq və xarici əlaqələr

43.1. Təhsil sahəsində beynəlxalq əməkdaşlıq Azərbaycan Respublikasının qanunvericiliyi və tərəfdar çıxdığı beynəlxalq müqavilələr əsasında həyata keçirilir.

43.2. Təhsil müəssisəsi qanunvericiliyə və özünün fəaliyyət xüsusiyyətlərinə uyğun olaraq xarici ölkələrin elm və təhsil müəssisələri, təşkilatları, beynəlxalq qurumlar və fondlarla birbaşa əlaqələr yarada, əməkdaşlıq haqqında ikitərəfli və çoxtərəfli müqavilələr bağlaya, təhsil sahəsində fəaliyyət göstərən dövlət və qeyri-hökumət qurumlarına (ittifaqlar, birliklər, assosiasiyalar və s.) daxil ola və əməkdaşlığın digər formalarını həyata keçirə bilər.

43.3. Təhsil müəssisəsi beynəlxalq səviyyəli birgə elm və təhsil layihələrinin hazırlanması, fundamental elmi tədqiqat və layihə-konstruktor işlərinin, elmi-praktik konfransların, simpoziumların keçirilməsi, tələbələrin, magistrlərin, doktorantların, müəllimlərin və elmi işçilərin mübadiləsi, iddia sənədi, patent və ya onlarla bağlı hüquqların özgəninkiləşdirilməsi və bu qəbildən olan digər fəaliyyətlə müvafiq normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada müstəqil məşğul olmaq hüququna malikdir.

43.4. Təhsil müəssisəsinin (xüsusi təyinatlı təhsil müəssisələri istisna olmaqla) fəaliyyətinin keyfiyyətini yüksəltmək və beynəlxalq əlaqələrini genişləndirmək məqsədi ilə Azərbaycan Respublikasının mövcud normativ hüquqi aktlarının tələblərini gözləməklə müstəqil olaraq xarici tərəfdaşlarla birlikdə ölkə daxilində və xarici dövlətlərdə müştərək struktur bölmələri (mərkəzlər, filiallar, laboratoriyalar, texnoparklar və s.) yaratmaq hüququ vardır.

43.5. Təhsil müəssisəsinin birbaşa beynəlxalq əməkdaşlıq müqavilələrinə dövlət tərəfindən zəmanət verilmir.

Maddə 44. Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında təhsil almaq hüququ

44.1. Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında təhsilin hər hansı pilləsində təhsil alması və ya ixtisas artırması Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, dövlət tərəfindən müəyyən edilmiş kvota və təhsil müəssisəsinin, hüquqi və fiziki şəxslərin birbaşa bağladıqları müqavilələr əsasında həyata keçirilir.

44.2. Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında təhsil alması qaydaları, xarici ölkələrin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası) qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş normativ hüquqi aktlarla tənzimlənir.

44.3. Azərbaycan Respublikasının tərəfdar çıxdı-

ğı beynəlxalq müqavilələrdə nəzərdə tutulan hallar istisna olmaqla, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında xüsusi təyinatlı təhsil müəssisələrində təhsil almaq hüququ yoxdur.

VI FƏSİL
KEÇİD VƏ YEKUN MÜDDƏALARI

Maddə 45. Qanunun pozulmasına görə məsuliyyət

Bu Qanunu pozan hüquqi və fiziki şəxslər Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Maddə 46. Keçid müddəaları

46.1. Bu Qanun qüvvəyə minənədək verilmiş elmlər namizədi alimlik dərəcəsi müvafiq sahə üzrə fəlsəfə doktoru dərəcəsinə bərabər tutulur.

46.2. Bu Qanun qüvvəyə minənədək aspirantura-da təhsil alan şəxs doktorant statusu əldə edir.

Maddə 47. Qanunun qüvvəyə minməsi

47.1. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

47.2. Bu Qanunun qüvvəyə mindiyi gündən Azərbaycan Respublikasının 1992-ci il 7 oktyabr tarixli 324 nömrəli Təhsil Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992-ci il, № 24, maddə 1031; 1994-cü il, № 16, maddə 216; 1995-ci il, № 7, maddə 123; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 3, maddə 226, № 4, maddələr 287, 294, № 6, maddə 450; 1998-ci il, № 1, maddə 16; 1999-cu il, № 5, maddələr 285, 286; 2001-ci il, № 3, maddə 138, № 11, maddə 672, № 12, maddələr 731, 736; 2003-cü il, № 1, maddə 1; 2004-cü il, № 4, maddə 202, № 6, maddə 415; 2007-ci il, № 11, maddə 1049) qüvvədən düşmüş hesab edilir.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 iyun 2009-cu il.

США высказывают новые опасения в отношении программы Ирана по разработке ядерного оружия

Вашингтон. 14 сентября 2009 года. В настоящее время Иран может обладать достаточным количеством обогащенного ядерного топлива для создания ядерной бомбы, заявил 9 сентября высокопоставленный американский дипломат, выступая в Международном агентстве по атомной энергии в Вене.



"У нас есть серьезные опасения, что Иран сознательно пытается, как минимум, сохранить возможность производства ядерного оружия, -сказал посол США Глин Дэвис. – Эта продолжающаяся деятельность по обогащению урана ... приближает Иран к опасной и дестабилизирующей возможности выхода на производство ядерного оружия".

В новом докладе Генерального директора МАГАТЭ Мохамеда Эль-Барадеи указывается, что Иран имеет не менее 1430 кг низкообогащенного гексафторида урана, важнейшего компонента для производства ядерной бомбы, который может быть дополнительно обогащен до оружейного материала, сообщил Дэвис.



"Сейчас Иран либо очень близок к этому, либо уже обладает достаточным количеством низкообогащенного урана для производства ядерного оружия, - отметил посол.

Ранее МАГАТЭ сообщило, что в Иране насчитывается более 8000 центрифуг, предназначенных для обогащения урана, на своем главном объекте в Натанзе. По сообщениям, Иран использует около половины этой техники для обогащения урана.

НАУКА НЛО

ЧТО ИЗВЕСТНО ЧЕЛОВЕЧЕСТВУ О ВНЕЗЕМНОМ РАЗУМЕ

До настоящего времени широкой общественности не было известно о наблюдениях за НЛО, которые ведут правительства многих стран мира. И вот, недавно, секретные сведения стали доступны всем желающим. Что же известно человечеству о внеземных цивилизациях и существах с других планет?

В рассекреченных документах в основном содержаться сообщения о непонятных атмосферных эффектах. Любопытно, что за всё время наблюдений ни от одного «рационально мыслящего» человека не поступили подробные сведения о нехарактерном для Земли летательном аппарате.

Однако есть множество сообщений, перешагнувших грань между «таинственными случаями» и «прямым абсурдом». Так, один пенсионер заявил о том, что получил от инопланетян туристическую путевку на космическое путешествие, но потом братья по разуму передумали и отказали ему в туре из-за возраста.Впервые сообщения об НЛО появились в конце 1940-х годов и начали стремительно и в огромных количествах



поступать из стран западного мира. Любопытно, что в Советском Союзе, Китае и других коммунистических странах с инопланетянами сталкивались гораздо реже. В основном жители СССР слушали западные сообщения на эту тему по «Голосу Америки», а также смотрели пробившиеся через «железный занавес» сюжеты в передаче «Очевидное – невероятное». Однако и в нашей стране с 1959 года стали появляться сообщения свидетелей о появлении «тарелок», а далее – соответствующие комиссии – состоящие, в том числе и из серьезных ученых.

В наше время «наблюдатели НЛО» чаще всего встречают так называемые огни в небе. Как правило, они исходят от обычной авиатехники – самолетов, метеорологических зондов (аэростатов). Изрядная часть таких наблюдений относятся на долю шаровых молний и прочих эффектных и малоизученных атмосферных явлений.



На втором месте среди сообщений об НЛО стоят встречи с инопланетянами и похищения. Обычно, участники таких событий сообщают, что их выкрали, а затем они провели какое-то время на борту «летающей тарелки». Потом инопланетяне провели над землянами какие-то эксперименты, а в конце концов вставили имплантат – металлический или пластиковый предмет непонятного назначения – и отпустили восвояси. Есть сведения и о более жестоких экспериментах инопланетян – например, изнасилованиях или даже похищениях зародышей из чрева женщины задолго до завершения периода вынашивания. Правда, при этом женщина обычно остается цела и невредима, и гинекологическое исследование не показывает никаких следов аборта или выкидыша. Что касается внешнего облика инопланетян, то самые распространенные их расы – это серые, ящероподобные гуманоиды и обыкновенные люди почему-то исключительно европеоидной расы. Серые – это небольшого роста существа с огромными глазами, маленьким носом, совершенно без волос и с четыремя пальцами на каждой руке.

Ящероподобные гуманоиды похожие на динозавров человеческого роста, хорошо владеющих передними конечностями. Что касается людей, то обычно это высокие красивые блондины и блондинки в серебристых комбинезонах. Кстати, по этой «моде» одеваются и серые.

Между прочим, несмотря на недоброе отношение уфологов к официальной науке, ни один уче-


ный до сих пор не отрицал существование внеземного разума. Эта тема интересовала многих известных и авторитетных ученых. Даже знаменитый физик Энрико Ферми, автор планетарной модели атома, не остался в стороне. Он оценил вероятность существования в нашей Галактике высокоразвитых цивилизаций, и пришел к выводу, что их должно быть очень много.

Между прочим, представители официальной науки уже несколько десятков лет посылает сигналы в космос, но не ищут «братьев по разуму» на Земле. Французский ученый Жак Валле собрал примерно пять тысяч случаев наблюдения НЛО и




склоняется к тому, что это – скорее психологический феномен, нежели свидетельство деятельности иноземного разума. Зачем посланцам высокоразвитой цивилизации летать туда-сюда множество раз, словом, мельтешить сверх меры? К тому же, как отмечает тот же Валле, в США имеется более тысячи свидетельств того, что пришельцы брали людей на борт НЛО, проводили медицинские обследования, делали анализы. Если верить очевидцам, то изучение это велось довольно примитивными способами. В американских университетах то же самое делают на куда более высоком уровне. Странно, почему высокоразвитая цивилизация пренебрегает такими возможностями?

Если инопланетяне все-таки существуют, то объяснить и предсказать их возможные действия легче всего с помощью известной теории устойчивого развития цивилизации. Согласно ей, большинство цивилизаций (и в том числе наша) находится под угрозой гибели до тех пор, пока не избавится от угрозы глобальной войны и мирового экологического кризиса. Если она преодолеет все эти трудности - так называемые «пределы роста», и перейдёт к безопасному и надежному «устойчивому развитию», то интеллектуально-нравственный уровень ее представителей будет достаточно высоким. Возможно, эту стадию развития преодолевают не все многочисленные – по Ферми – цивилизации нашей Галактики. Но только такие существа получают возможность достичь звезд. Таким образом, представители более высокого внеземного разума, столкнувшись с землянами, скорее всего, как пишут Стругацкие, «покинут планету, по возможности уничтожив следы своего пребывания». В таком случае, мы пока ничего не можем узнать о посетивших нашу планету разумных существах. Возможно, они наблюдают за нами



исподтишка, и дадут о себе знать лишь тогда, когда мы перестанем представлять опасность для самих себя. Иначе, заявив о себе, они могут спровоцировать панику, подобную той, которая произошла во время постановки романа Уэллса «Война миров». Но, так или иначе, есть ли разум на других планетах, нет ли его – науке пока неизвестно.



MOZAİKA

Amerikanın məşhur "Forbes" jurnalı dünyanın ən bahalı avtomobillərinin siyahısını açıqladı.



Jurnalın yazdığına görə, bir çoxlarının xəyalına belə gətirə bilmədiyi qiymətlərdə təklif olunan avtomobillər maliyyə böhranına baxmayaraq, müştəri qıtlığı çəkmirlər. Avtomobillərin sahibləri də dünyada kifayət qədər tanınmış simalardır. Məsələn, Silvester Stallone, Tom Kruiz, Formula 1 pilotu Alən Prost, Ekvatorial Qvineya prezidentinin oğlu Nqema Mbasoqonun seçimləri Bugatti Veyron oldu. Sonuncu, 2007-ci ildə Fransada 370 km/saat sürətlə radara düşməsi ilə yadda qalıb.



Pagani Zonda Cinique Coupé (İtaliya)
Qiymət: 1 738 080 dollar
Güc: 678 a.q
Sürətlənmə (0-100 km/saat): 3.3 san
Maksimal sürət: 347 km/saat
Mühərrik: 12 silindr Mercedes Benz AMG



Bugatti Veyron (Fransa)
Qiymət: 1 738 080 dollar
Güc: 1001 a.q
Sürətlənmə (0-100 km/saat): 2.5 saniyə
Maksimal sürət: 407 km/saat
Mühərrik: V şəkilli 16 silindr

Lamborghini Reventon (İtaliya)
Qiymət: 1 454 400 dollar
Güc: 650 a.q
Sürətlənmə (0-100 km/saat): 3.4 san
Maksimal sürət: 337 km/saat
Mühərrik: 6.5 litr, V 12 və 6 pilləli mexaniki sürət qutusu





Leblanc Mirabeau (İsveçrə)
Qiymət: 861 798 dollar (yarımavtomat sürət qutusu üçün + 76 000 dollar)
Güc: 700 a.q
Sürətlənmə (0-100 km/saat): 2.9 san
Maksimal sürət: 370 km/saat
Mühərrik: 4.7 litr V8 turbokompressor
İstehsal olunduğu ölkədə bu avtomobili idarə etmək üçün əlavə sürücülük kursunun keçilməsi mütləqdir.



Maybach 62 Zeppelin (Almaniya)
Qiymət: 506 500 dollar
Güc: 631 a.q.
Sürətlənmə (0-100 km/saat): 5.1 san
Maksimal sürət: 250 km/saat
Mühərrik: 6.0 litr, 2 turbokompressor AMG

Koenigsegg CCXR (İsveç)
Qiymət: 2 173 950 dollar
Güc: 1018 a.q.
Sürətlənmə (0-100 km/saat): 2.9 san
Maksimal sürət: 400 km/saat
Mühərrik: 4.7 litr V8 alüminium blok.



AVTO MOBİLƏ

LƏTİFƏLƏR

İki professor universitetdə söhbət edir:

— Əgər məndən bir nəfər "5" ala bilsə, adımı dəyişdirərəm.

O biri professor:

— Əgər məndən kimsə "4" ala bilsə, adımı dəyişdirərəm.

Söhbəti arxadan eşidən dekan deyir:

— Əgər sizin ikinizi də universitetdən qovmasam, adımı dəyişdirərəm.

Anası ilk dəfə universitetə gedən oğlundan soruşdu:

— Gözümün işığı, bu gün universitetdə nə öyrənmisən?

Oğlan pis əhval-ruhiyyə ilə cavab verir:

—Heç nə öyrənməmişəm. Ona görə də, sabah yenə gedəcəyəm.

Müəllim müəllimə deyir:

—Mənim sinfim savadsız uşaqlarla doludur. Teoremi izah edirəm, başa düşmürlər. İkinci dəfə izah edirəm, yenə də başa düşmürlər. Üçüncü dəfə izah etdim, mən başa düşdüm, amma onlar yenə başa düşmədilər.

Abituriyent imtahandan gəlir. Valideynləri sevincək halda onun üzərinə atılırlar:

— Hə, necə keçdi?

— Heç, imtahan götürən dindarın biri idi. Mən hər dəfə cavab verəndə deyirdi: — Aman Allah!!!

Əgər dekan sözlərini geri götürməsə, mən bu universitetdən gedəcəyəm.

— O sənə nə dedi ki?

—Dedi ki, "çıx get universitetdən."

Ac tələbələr yataqxanada arzulayırlar:

—İndi burda ət olsaydı...

—Bəlkə donuz saxlayaq?

— Nə danışırsan, çirk, iy,üfunət ...

— Eybi yox, öyrəşər.

Bir gün tələbə yol ilə gedərkən, imtahanda ona "2" vermiş müəllimi ilə rastlaşır.

Tələbə:

—Salam, müəllim!

Müəllim:

—Mən axmaqlarla salamlaşmıram!

Tələbə:

—Təəvvür edirsiniz, mən isə yalnız axmaqlarla salamlaşıram...

Tələbə şikayətlənir:

—Müəllim, mən "2" almağa layiq deyiləm axı!

— Bilirəm, amma "2" -dən aşağı qiymətimiz yoxdur...

Müəllim:

— Sənin riyaziyyat məsələni yeni anan həll edib?

Şagird:

— Üzr istəyirəm, neyləyim? Atam da mənim kimi riyaziyyatdan heç nə bilmir...

Məktəbin direktoru sinif yoldaşı ilə dalaşmış şagirdi məzəmmətləyir:

— Utanırsan?

Şagirdin cavab vermədiyini görüb əsəbi halda əlavə edir:

— Hə, niyə susursan?

— Fikirləşirəm.

— Nə haqda?

—Utanmalıyam, yoxsa yox...

USAQ DÜNYASI

"Xəzər Xəbər" toplusunun məktəblilər üçün əlavəsi

YENİ DƏRS İLİNİN AÇILIŞ MƏRASİMİ











Sentyabr ayının 14-də Xəzər Universitəsinin nəzdində fəaliyyət göstərən "Dünya" məktəbində növbəti yeni tədris ilinin başlanması münasibətilə açılış mərasimi oldu.

Mərasimdə məktəbin müəllim kollektivi, şagirdlər, valideynlər və məktəbi uğurla başa vurub hər biri Azərbaycanın müxtəlif ali məktəblərinə daxil olan məzunlar iştirak edirdilər.

"Dünya" məktəbinin təsisçisi, Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı tədbirdə çıxış edərək, yeni dərs ilinin başlanması münasibətilə və məktəbin əldə etdiyi müvəffəqiyyətlərə görə bütün kollektivi təbrik etdi və uğurların bundan sonra da davam olunacağına əminliyini bildirdi.

Məktəbin direktoru Nailəxanım İsayeva da öz ürək sözlərini söylədi və birinci sinif şagirdlərinə şagird vəsiqələri təqdim etdi.

"Dünya" məktəbinin ilk məzunları qazandıqları nailiyyətlərə görə məktəbin müdiriyyətinə, müəllim kollektivinə və Xəzər Universitəsinə öz təşəkkür və minnətdarlıqlarını bildirdilər.

Tədbir məktəbin xor və rəqs kollektivinin ifasında maraqlı çıxışlarla başa çatdı.

SÜLH HAQQINDA MAHNI

Musiqisi Qara Qarayevin,
sözləri Zeynal Cabbarzadənindir.

Ana yurdum, qucağında
Boy atırıq azad, şən,
Bəslər bizi,
Səslər bizi
Xoş günlərə bu vətən!

Nəqərat:

Qoy mahnımız hər tərəfi
Ağız-ağız dolaşsın.
Qoy səsimiz keçilməyən
Meşə keçsin, dağ aşsın.

Hərbi qızışdıranlar
Olmuş sülhün düşməni.
Tökmək istər,
Sökmək istər
Bombalarla dünyanı.

Nəqərat:

Yurdumuza biz arxayıq,
Qorxumuz yox davadan.
Sülh var olsun,
Bahar olsun
Yer üzündə hər zaman.

Nəqərat:



MARAQ DÜNYASI

BİLİRSİNİZMİ?



- *Timsah dilini bayıra çıxarda bilmir.*
- *7-ci mərtəbədən yıxılan pişiyə nisbətən, 20-ci mərtəbədən düşən pişiyin sağ qalmaq şansı daha çoxdur.*
- *Karib adaları ərazisinin yalnız 1%-ində yaşamaq mümkündür.*
- *Yer səthinin 70%-ni su təşkil etsə də, onun yalnız 1%-i içmək üçün yararlıdır.*
- *Rentgen nəticəsində "Monna liza"nın orijinalından əlavə, üç ilkin variantının olduğu məlum olub.*
- *ABŞ sakinləri hər gün 18 hektarlıq bir sahəni tuta biləcək qədər pitsa yeyirlər.*
- *2 milyon insan arasında yalnız bir nəfər 116 il yaşamaq şansına malikdir.*
- *Tırtıl öz çəkisindən 25, qarışqa 100, zəli isə 150 dəfə ağır olan yükü apara bilir.*
- *Dəqiqədə 2 metr məsafə qət edən üçayaqlı ərincək meymun məmələlər arasında ən astagəl həşarat hesab edilir.*
- *İlk reklam 1477-ci ildə İngiltərədə çap edilib. Bu, dua kitabının reklamı olub.*
- *Kapitan Ceyms Kuk Antarktidadan başqa bütün qitələrə ayaq basmış ilk insandır.*
- *Mahnı bəstələməyə başlamazdan əvvəl Lüdviq Van Bethoven başını soyuq suya salırmış.*
- *Alüminiumdan hazırlanmış ilk alət XIX əsrin 50-ci illərində Fransa imperatoru III Napoleon üçün düzəldilmiş zınqırov olub.*

***Toplayanı: Pərviz* MƏMMƏDOV,**
VII c sinif şagirdi

KİTABXANAMIZIN YENİ KİTABLARI



Bacigal, R. Criminal law and procedure: an introduction. – 2nd ed. – Albany, NY: West/Thomson Learning, 2002. – 368 p. – ISBN 0-7668-3083-7

Dacey J. Human development across the lifespan / J. Dacey, J. Travers, L. Fiore. – 7th ed. – Boston, MA: McGraw-Hill, 2009. – 587 p. – ISBN 0-07-338265-4



*David, F. Strategic management: concepts and cases. – 11th ed. – Upper Saddle River, NJ: Pearson Prentice Hall, 2007. – 393 p. – ISBN 978-81-203-*3146-4






Kotler, Ph. Principles of marketing / Ph. Kotler, G. Armstrong. – 13rd ed. – Upper Saddle River, NJ: Pearson Prentice Hall, 2009. – 744 p. – ISBN 0-13-607941-5



Pike-Baky, M. Tapestry Writing 1. – Boston: Heinle and Heinle, c2000. – 205 p. – ISBN 0-8384-0033-7

Shively, W. Power and choice: an introduction to political science. – 9th ed. – New York: McGraw Hill, 2005. – 444 p. – ISBN 0-07-286896-1





Triola, M. Elementary statistics. – 8th ed. – Redwood City, CA: Benjamin/Cummings Publishing, 2001. – 855 p. – ISBN 0-201-61477-4

Абдуллаев, Ч. Апология здравого смысла: роман. – Москва: Эксмо, 2008. – 320 с. – ISBN 978-5—699-32210-7



Hazırlayanı: Lyudmila Sotova

KHAZAR VIEW

XƏZƏR XƏBƏR

Öz ciddi məzmunu və rəngarəngliyi ilə seçilən
"Xəzər Xəbər" toplusu yenə sizin görüşünüzə gəlib.
"Xəzər Xəbər"də Azərbaycan, rus, ingilis,
türk və başqa dillərdə dərc olunan maraqlı xəbərlər,
ali və orta təhsil haqqında yeniliklər,
poeziya və ədəbiyyat səhifələri, məzəli əhvalatlar,
elmi əsərlər, siyasətə, mədəniyyətə, idmana aid yazılar, qəribə
sevgi macəraları, uşaq yaradıcılığı, maraqlı yarışlar -
müsabiqələr və s. könlünüzcə olacaq.
"Xəzər Xəbər" gənclərin və oxuyan,
düşünən hər kəsin dərgisidir.
"Xəzər Xəbər"i İNTERNET vasitəsilə dünyanın
hər yerində oxuyurlar.
"Xəzər Xəbər"i siz də oxuyun!
"Xəzər Xəbər"ə siz də yazın!
"Xəzər Xəbər"i şəhərimizdəki qəzet-jurnal
köşklərindən ala bilərsiniz.
"Xəzər Xəbər" ayda iki dəfə çıxır.

Ünvan: Bakı şəhəri,
Məhsəti küçəsi, 11.
Əlaqə telefonları: 421-79-16
421-10-93.
E-mail: xazarxabar@khazar.org